## Pilotların hazırlığı yüksək qiymətləndirilib

Türkiyənin "Hürkuş" təyyarəsi Azərbaycanda sınaqdan keçirilib



**Türkiyə Respublikasının TUSAŞ şirkətinin istehsalı olan iki ədəd "Hürkuş" təlim təyyarəsi nümayiş məqsədilə Bakıya gətirilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən xəbərə görə, dekabrın 3-də Hərbi Hava Qüvvələrinin N hərbi hissəsində keçirilən "Yüksək səviyyəli müşahidəçi günü"ndə "Hürkuş" hərbi təyyarələrinin nümayiş uçuşları icra olunub.

(səh.2)

## Qayadan yıxılıb

Hərbçimiz bədbəxt hadisə nəticəsində həlak olub



**Dünən Azərbaycan Ordusunun hərbi qulluqçusu, gizir Hüseynov Şahin Şəmsəddin oğlu məzuniyyətdə olarkən bədbəxt hadisə nəticəsində (qayadan yıxılaraq) həlak olub.**

Musavat.com xəbər verir ki, əslən Gədəbəy rayonundan olan Şahin Hüseynov Vətən müharibəsi iştirakçısı olub.

*O, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Kəlbəcərin azad olunması görə" medalı ilə təltif edilib.*

# Mina axtarışında ilk dəfə...

## FHN itlərdən istifadə edib



**Dünən Fövqəladə Hallar Nazirliyinin (FHN) təşkilatçılığı ilə Ağdamın Maqsudlu kəndinə mediatur təşkil olunub.**

"Şərq" xəbər verir ki, mediatur zamanı məlumat verilib ki, FHN-nin Xüsusi Riskli Xilasetmə Xidmətinin istehkam qrupları işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatlarını davam etdirir.

44 günlük Vətən müharibəsindən sonra ərazilərin minalardan, partlamamış hərbi sursatlardan və digər qalıqlardan təmizlənməsi prosesinə digər dövlət qurumları ilə yanaşı, Xüsusi Riskli Xilasetmə Xidmətinin minaaxtaran qrupları da cəlb olunub.

Dünən ilk dəfə olaraq Fövqəladə Hallar Nazirliyi xüsusi təlim görmüş itləri işğaldan azad olunmuş torpaqlarda mina axtarışına cəlb edib.

Bu barədə danışan Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətinin rəhbəri Gülçin Mehdiyeva qeyd edib ki, bundan sonra da təlim görmüş itlər işğaldan azad edimiş torpaqlarımızda mina axtarışına cəlb ediləcək.


№ 222 (5504), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 4 dekabr 2021-ci il (şənbə)




## Regionda baş verən ən son proseslər diqqət mərkəzindədir

Ceyhun Bayramov ATƏT-in baş katibi ilə görüşüb

**Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclasında iştirakı çərçivəsində ATƏT-in baş katibi Helqa Şmid ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə verilən məlumata görə, görüş zamanı tərəflər münaqişə sonrası bölgədə yaranan yeni vəziyyət, regionda baş verən ən son proseslər, üçtərəfli bəyanatların icrası istiqamətində atılan addımlar, habelə ATƏT ilə əməkdaşlıq məsələləri, azad edilmiş ərazilərdə bərpa, yenidənqurma və reinteqrasiya prosesləri barədə fikir mübadiləsi aparılıb.

(səh.2)

## Pandemiya istehsala mənfi təsir edib

Baş nazir qiymət artımının səbəblərindən danışıb



**"Gələn ilin dövlət büdcəsi müstəqil Azərbaycanın ən böyük büdcəsidir".**

Bunu dünən Milli Məclisin iclasında büdcə zərfinin qəbulu ilə bağlı çıxışında Baş nazir Əli Əsədov bildirib. Baş nazir bildirib ki, millət vəkillərinin sualları hökumət üzvləri tərəfindən cavablandırılıb: "İşğaldan azad edilmiş torpaqlarla bağlı məsələlər büdcədə prioritet istiqamət kimi nəzərə alınıb. Tarixi çağırışlar nəzərə alınaraq, Prezident tərəfindən 2030-cu ilə bağlı prioritetlər barədə sərəncam imzalayıb. Hökumətə sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması ilə bağlı tapşırıq verilib. Strategiya layihəsi hazırlanıb və təsdiq üçün Prezidentə təqdim edilib".

(səh.2)

# Gündəm Qarabağdır

## Putin və Ərdoğan Azərbaycan-Ermənistan münasibətlərini müzakirə ediblər



*Münaqişə zonasında bütün hərbi əməliyyatlara nəzarət etmək üçün Rusiya-Türkiyə mərkəzinin imkanlarından istifadə olunacaq*

**Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. Kremlin mətbuat xidmətinin yaydığı məlumata görə, Türkiyə tərəfinin təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı Vladimir Putin türkiyəli həmkarına Rusiya, Azərbaycan və Ermənistan liderlərinin noyabrın 26-da Soçidə Dağlıq Qarabağla bağlı 9 noyabr 2020-ci il Bəyanatının imzalanmasının ildönümünə həsr olunmuş üçtərəfli görüşünün əsas nəticələri barədə məlumat verib.**

**"Danışıqların gedişatında Bakı və İrəvanın regionda sabitliyin təmin edilməsi kontekstində əməkdaşlığa, eləcə də iki dövlət arasında sərhədin delimitasiyası və demarkasiyası mexanizmlərinin yaradılmasına hazırlığının təsdiqlənməsi vacibdir. Bundan əlavə, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı praktiki məsələlərin həlli istiqamətində fikir mübadiləsi aparılıb.**

(səh.2)



## Hulusi Akar Suriya ilə sərhədboyu əraziyə səfər edib

**Türkiyənin milli müdafiə naziri Hulusi Akar qardaş ölkənin Silahlı Qüvvələrinin rəhbər heyəti ilə birlikdə Suriya ilə dövlət sərhədində yerləşən hərbi hissələrdə olub.**

Türkiyə Milli Müdafiə Nazirliyi xəbər verir ki, Hatay hava limanında edən ordu rəhbərliyi 6-cı ordu korpusunda olub.

*Nazir Hulusi Akar və onu müşahidə edən heyətə bölgədəki vəziyyətlə bağlı məruzə edilib, yerli birliklərin komandirlərinə zəruri tapşırıqlar verilib.*

# Ermənistan bizi hərbi gücdən istifadəyə məcbur edir

## Hərbçimizə hücum edən ermənin zərərsizləşdirilməsi göstərir ki, təxribatlar hələ bitməyib



**Azərbaycan Ordusunun Xocavənd rayonu ərazisində yerləşən mövqelərdən birində döyüş növbətçiliyi aparan hərbi qulluqçumuz bir ermənin hücumuna məruz qalıb.**

Həmin şəxs silahı ələ keçirməyə cəhd göstərib. Hərbi qulluqçumuz havaya atəş açaraq ona hücum edən təxribatçını zərərsizləşdirib. Hadisə barədə Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib. Faktla bağlı araşdırma aparılır. Xatırladaq ki, bu, Şuşadakı postumuza qumbara atan terrorçu Mirzoyandan sonra ikinci hadisədir.

(səh.4)

## Rüsumlar, cərimələr iki dəfə artırılıb

"Mən rəqəmləri havadan səsləndirmirəm"



**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib.**

Baş nazir Əli Əsədovun da iştirak etdiyi iclasda 2022-ci ilin dövlət büdcəsi müzakirə edilərək üçüncü oxunuşda qəbul olunub. Xatırladaq ki, qanun layihəsinə əsasən, gələn ilin dövlət büdcəsinin gəlirləri 26 milyon 816 min manat, xərcləri isə 29 milyon 879 min manat məbləğindədir.

(səh.3)

## Vəfat edənlərin sayı 24 nəfər olub

Son sutkada daha 1703 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 703 yeni yoluxma faktı qeydə alınıb, 2 180 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 24 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 593 588 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 560 999 nəfər müalicə olunaraq sağalıb, 7 929 nəfər vəfat edib, aktiv xəstə sayı 24660 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 13 211, ötən müddət ərzində isə ümumilikdə 5 578 401 test aparılıb.*



## "Müəllimləri, həkimləri, hətta mollaları attestasiyadan keçirirlər"

Seyran Səxavət: "Bəs televiziya işçilərini niyə söz azadlığı adı altında özbaşına qoymuşuq"

(səh.4)



## "Mənim üçün çox şərəflidir"

"Məşhur Amerika yazıçısı Reyd Breyberi də bu ordeni alır, mən də"

(səh.6)

# Gündəm Qarabağdır

## Putin və Ərdoğan Azərbaycan-Ermənistan münasibətlərini müzakirə ediblər



Münaqişə zonasında bütün hərbi əməliyyatlara nəzarət etmək üçün Rusiya-Türkiyə mərkəzinin imkanlarından istifadə olunacaq

**Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.**

Kremlin mətbuat xidmətinin yaydığı məlumata görə, Türkiyə tərəfinin təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı Vladimir Putin türkiyəli həmkarına Rusiya, Azərbaycan və Ermənistan liderlərinin noyabrın 26-da Soçidə Dağlıq Qarabağla bağlı 9 noyabr 2020-ci il Bəyanatının imzalanmasının ildönümünə həsr olunmuş üçtərəfli görüşünün əsas nəticələri barədə məlumat verib.

”Danışıqların gedişatında Bakı və İrəvanın regionda sabitliyin təmin edilməsi kontekstində əməkdaşlığa, eləcə də iki dövlət arasında sərhədin delimitasiyası və demarkasiyası mexanizmlərinin yaradılmasına hazırlığının təsdiqlənməsi vacibdir. Bundan əlavə, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı praktiki məsələlərin həlli istiqamətində fikir mübadiləsi aparılıb.

Rəcəb Tayyib Ərdoğan Rusiya Federasiyasının vasitəçilik rolunun vacibliyini qeyd edərək, səylərin gələcək koordinasiyasının, o cümlədən atəşkəs rejiminə və münaqişə zonasında bütün hərbi əməliyyatlara nəzarət etmək üçün Rusiya-Türkiyə mərkəzinin imkanlarından istifadə edilməsinin tərəfdarı olduğunu bildirib”, deyə Kremlin məlumatında qeyd olunub. (apa)

Rusiya və Türkiyə liderləri Suriya və Liviya problemlərini də müzakirə ediblər.

”Həmçinin Suriyada vəziyyətin sabitləşdirilməsi və sülh prosesinin bərqərar olması üçün əməkdaşlığın səviyyəsindən qarşılıqlı məmnunluq ifadə olunub. İki ölkənin hərbçiləri bundan sonra İdlib deeskalasiya zonasında birgə fəaliyyətini davam etdirəcək”.

Liviyadakı vəziyyətə gəlincə, BMT-nin vasitəçiliyi ilə siyasi və diplomatik nizamlanmaya alternativlərin olmaması vurğulanıb. Liviyanın dövlətçiliyinin və ərazi bütövlüyünün bərpasına yardım etməli olan 2021-ci il dekabrın 24-nə təyin edilmiş ümummilli seçkilərin uğurla keçiriləcəyinə ümid ifadə olunub”.

Ukrayna münaqişəsini müzakirə edərkən Putin və Ərdoğan 2015-ci il Minsk Kompleks tədbirlərinə və digər razılaşmalara, o cümlədən ”Normand formatı”na tam riayət olunmasının vacibliyini qeyd ediblər.

Rusiya prezidenti Kiyevin Minsk razılaşmalarını pozmağa yönəlmiş destruktiv xəttini davam etdirdiyinə diqqət çəkib. Bunu Ukrayna silahlı qüvvələrinin münaqişə zonasında təxribatçı fəaliyyəti, o cümlədən ”Bayraktar” pilotsuz uçuş aparatlarından istifadə etməsi sübut edir. Kiyevin Donbasa güc tətbiqi cəhdlərindən əl çəkməsinin vacibliyi vurğulanıb.

*Gələcək şəxsi təmaslar barədə razılıq əldə olunub.*



# Regionda baş verən ən son proseslər diqqət mərkəzindədir

## Ceyhun Bayramov ATƏT-in baş katibi ilə görüşüb

**Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclasında iştirakı çərçivəsində ATƏT-in baş katibi Helqa Şmid ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən ”Şərq”ə verilən məlumata görə, görüş zamanı tərəflər münaqişə sonrası bölgədə yaranan yeni vəziyyət, regionda baş verən ən son proseslər, üçtərəfli bəyanatların icrası istiqamətində atılan addımlar, habelə ATƏT ilə əməkdaşlıq məsələləri, azad edilmiş ərazilərdə bərpa, yenidənqurma və reinteqrasiya prosesləri barədə fikir mübadiləsi aparıblar.

Görüş zamanı nazir Ceyhun Bayramov Azərbaycanın ATƏT ilə əməkdaşlığa önəm verdiyini qeyd edib. Həmsöhbətinə işğaldan azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən aparılan yenidənqurma işləri çərçivəsində, xüsusilə ekologiya və ətraf mühitin qorunması sahəsində görülən işlər barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov, münaqişədən sonra bərpa və quruculuq prosesinə yardım mandatı olan bir təşkilat kimi ATƏT ilə bu xüsusda əməkdaşlığa açıq olduğumuzu ifadə edib.

*Tərəflər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektlərini müzakirə ediblər.*

# Pilotların hazırlığı yüksək qiymətləndirilib

## Türkiyənin ”Hürkuş” təyyarəsi Azərbaycanda sınaqdan keçirilib



**Türkiyə Respublikasının TUSAŞ şirkətinin istehsalı olan iki ədəd ”Hürkuş” təlim təyyarəsi nümayiş məqsədilə Bakıya gətirilib.**

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən xəbərə görə, dekabrın 3-də Hərbi Hava Qüvvələrinin N hərbi hissəsində keçirilən ”Yüksək səviyyəli müşahidəçi günü”ndə ”Hürkuş” hərbi təyyarələrinin nümayiş uçuşları icra olunub.

Tədbirdə Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov, Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı, hərbi attaşe general-mayor Zekeriya Yalçın və başqaları iştirak ediblər.

”Hürkuş” təlim təyyarəsinin taktiki-texniki xüsusiyyətləri və iş prinsipi barədə brifinq təqdim olunub.

Sonra hər iki qardaş ölkənin hərbi pilotlarının ölkəmizin hava məkanında birgə nümayiş uçuşları icra edilib.

General-leytenant R. Tahirov pilotların hazırlığını yüksək qiymətləndirib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

# Helikopter qəzasında həlak olan sərhədçilərə şəhid statusu verilib

## Bu ay ”Qaraheybət” şəhidlərinin ailələrinə sosial ödənişlər təyin olunacaq



**”Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən ”Qaraheybət” aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğraması nəticəsində çox sayda zabitlərimizi itirdik. Onlara Allahdan rəhmət, ailələrinə səbr diləyirəm. Bu hadisə hər birimizin faciəsidir”.**

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir qəza nəticəsində 2 hərbçinin də yaralandığını xatırladıb: ”Onlara da tezliklə sağlamlıqlarının bərpa olunmasını arzu edirəm. Qəza nəticəsində həlak olanlar bizim şəhidlərimizdir. Şəhid statusunda nəzərdə tutulan bütün ödənişlər (müavinət, təqaüd, kompensasiya, pensiya) onların ailələrinə də ödəniləcək. Mənzil, avtomobil təminatı olacaq. Bu ailələrin ehtiyaclarının qarşılanması üçün dövlət tərəfindən irəli sürülən bütün alətlərdən istifadə olunacaq”.

Sahil Babayev deyib ki, artıq Dövlət Sosial Müdafiə Fondu (DSMF) noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən ”Qaraheybət” aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğraması nəticəsində şəhid olan hərbi qulluqçularımızın ailələrinin sənədlərinin toplanmasına başlayıb.

Nazir bildirib ki, onlara müvafiq sosial ödənişlərin *(müavinət, təqaüd, kompensasiya, pensiya)* hər biri bu ay ərzində təyin olunacaq: ”Onların digər sosial hüquqları da təmin olunacaq”.

# Baş katib: "Heç bir ölkə Türk Dövlətləri Təşkilatının üzvləri qədər Rusiya ilə dost deyil"



**”Dünyada heç bir ölkə Türk Dövlətləri Təşkilatının üzvləri qədər Rusiya ilə dost deyil”.**

APA-nın xəbərinə görə bunu, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amrayev ”Anadolu” agentliyinə müsahibəsində deyib.

Bağdad Amrayev Türk Dövlətləri Təşkilatının üzvlərinin Rusiyaya yaxın olduğunu qeyd edib: ”Dünyada heç bir ölkə Rusiyaya Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, hətta Türkiyə qədər yaxın və dost deyil. Üstəlik, Rusiya ilə münasibətlərimizin bütün ehtiyacları hazırda qüvvədə olan çoxsaylı ikitərəfli sazişlərlə üst-üstə düşür”.

# İrandan gətirilən 23 ton yararsız kartof geri qaytarılıb

**İrandan idxal olunan 23 tondan çox yararsız kartof məhsulu geri qaytarılıb.**

Bu barədə Qida Təhlükəsizliyi Agentliyindən məlumat verilib.

Həyata keçirilən nəzarət tədbirləri çərçivəsində hüquqi şəxs ”AGR GROUP” MMC tərəfindən İran İslam Respublikasından idxal edilən ümumi çəkisi 23.6 ton ərzaqlıq kartof məhsulu partiyalarına Agentliyin müfəttişləri tərəfindən baxış keçirilib.

Baxış zamanı idxal olunan məhsuldan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında müayinələrə cəlb olunub. Müayinələr nəticəsində nümunələrdə karantin tətbiq edilən orqanizm (”Ralstonia solanacearum” - kartofun qonur çürüməsi) aşkar edilib.

Agentlik tərəfindən istifadəyə yararsız ümumi çəkisi 23.6 ton ərzaqlıq kartof məhsulu partiyalarının İran İslam Respublikasına geri qaytarılması barədə qərar qəbul edilib.

## Direktor: “Təcili tibbi yardım çağırışı üçün hər hansı məhdudiyyət yoxdur”

**”Bizim ölkədə təcili tibbi yardım çağırışı üçün hər hansı məhdudiyyət yoxdur”.**

APA-nın məlumatına görə, bunu Respublika Klinik Xəstəxanasının direktoru Azər İsmayılov ”Xəstəxanalarda sığorta fəaliyyətinin təşkilinə nəzarət” mövzusunda çıxışında deyib. O bildirib ki, təxirəsalınmaz təcili yardıma hər bir halda çağırış ola bilər.

O qeyd edib ki, bəzi ölkələrdə çağırışla bağlı su-istifadə hallarına rast gəlinir.

## İşlərə başlanıb

”Azərbaycan-Türkiyə birgə universiteti yaradılır



**Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması istiqamətində işlərə başlamışıq.**

APA-nın xəbərinə görə, bu barədə Azərbaycanın təhsil naziri Emin Əmrullayev Türkiyə Ali Təhsil Şurasının sədri Erol Özvarla birgə keçirdiyi brifinqdə bildirib.

O qeyd edib ki, bu layihənin yaxın zamanlarda həyata keçirilməsi təmin ediləcək.

”Hər iki ölkənin dövlət başçılarının siyasi iradəsi sayəsində Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoyacaq”, - nazir vurğulayıb.

# Pandemiya istehsala mənfi təsir edib

## Baş nazir qiymət artımının səbəblərindən danışıb



**”Gələn ilin dövlət büdcəsi müstəqil Azərbaycanın ən böyük büdcəsidir”. Bunu dünən Milli Məclisin iclasında büdcə zərfinin qəbulu ilə bağlı çıxışında Baş nazir Əli Əsədov bildirib.**

Baş nazir bildirib ki, millət vəkillərinin sualları hökumət üzvləri tərəfindən cavablandırılıb: ”İşğaldan azad edilmiş torpaqlarla bağlı məsələlər büdcədə prioritet istiqamət kimi nəzərə alınıb. Tarixi çağırışlar nəzərə alınaraq, Prezident tərəfindən 2030-cu illə bağlı prioritetlər barədə sərəncam imzalayıb. Hökumətə sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması ilə bağlı tapşırıq verilib. Strategiya layihəsi hazırlanıb və təsdiq üçün Prezidentə təqdim edilib”.

**“Ordu quruculuğu prioritet istiqamətlər sırasındadır”**

*Baş nazir vurğulayıb ki, ordu quruculuğu, milli təhlükəsizliyin daha da gücləndirilməsi, zəruri infrastrukturun yaradılması, hərbçilərin sosial təminatının yaxşılaşdırılması hökumət üçün əsas prioritet istiqamətlər sırasındadır.*

Ə.Əsədov Zəngəzur dəhlizinin əhəmiyyətindən də danışıb və qeyd edib ki, koridorun açılmasının böyük əhəmiyyəti var: ”İstifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanı, eyni zamanda, istifadəyə veriləcək Zəngilan və Laçın aeroportları çox önəmlidir.

**“Əhalinin rifah halının yaxşılaşdırılması üçün layihələr həyata keçirilir”**

**Baş nazir Əli Əsədov bildirib ki, deputatlar təmsil olunduqları rayonlarda bu qəbildən olan məsələlərlə bağlı təkliflər veriblər:** ”Bu məsələlər diqqətdə saxlanılır və davamlı olaraq məqsədyönlü tədbirlər görülür. Deputatların qaldırdığı qazlaşdırma məsələsinə gəlincə, hazırda ölkədə qazlaşdırılması həyata keçirilməyən hər hansı rayon yoxdur. Rayonlar arasında hər hansı ayrı-seçkiliyə yol vermədən qazlaşdırılmanın başa çatdırılması hökumətin əsas hədəflərindən biridir. Bir çox ölkədə, hətta böyük qaz ixracatçı olan ölkələrdə əhalinin qazlaşdırılmasına indi başlanır. Azərbaycan üzrə qazlaşdırmanın səviyyəsi isə 96,3 faiz təşkil edir”.

**“Subsidiyaların verilməsinə nəzarət gücləndiriləcək”**

**Əli Əsədov bəyan edib ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün gələn ilin dövlət büdcəsində böyük həcmdə vəsait nəzərdə tutulub:** ”Bir çox hallarda subsidiyalara baxmayaraq, əhəmiyyətli nəticələr əldə olunmur. Subsidiyaların verilməsinə nəzarət ciddi surətdə gücləndiriləcək”.

Baş nazir qiymət artımının səbəblərindən də danışıb: ”Pandemiya istehsal həcmlərinə mənfi təsir göstərib. Beynəlxalq təşkilatlar qiymətlərin son 30 ildə ən yüksək həddə çatdığını bildirib. Bunun ölkə iqtisadiyyatına mənfi təsirinin qarşısının alınmasına, ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetiriləcək. Qiymət artımı ilə əlaqədar hökumət mümkün olan bütün qabaqlayıcı tədbirləri görür və bundan sonra da görəcək. Süni qiymət artımının qarşısının alınması ilə bərabər, idxalın əvəzinə istehsalın artırılması nəzərdə tutulur”.

**İsmayıl**

# Rüsumlar, cərimələr iki dəfə artırılıb

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. Baş nazir Əli Əsədovun da iştirak etdiyi iclasda 2022-ci ilin dövlət büdcəsi müzakirə edilərək üçüncü oxunuşda qəbul olunub. Xatırladaq ki, qanun layihəsinə əsasən, gələn ilin dövlət büdcəsinin gəlirləri 26 milyon 816 min manat, xərcləri isə 29 milyon 879 min manat məbləğindədir.**

"Mən rəqəmləri havadan səsləndirmirəm"







*Sabir Rüstəmxanlı komitə sədri Tahir Mirkişiliyə iradlarını bildirdi*

**"Komitə sədri hansı əsasla deyir ki, rüsum və cərimələrdə 3 dəfəlik artım yoxdur?"**

**Millət vəkili Sabir Rüstəmxanlı deyib ki, o, ötən iclasda dövlət rüsumlarının, cərimələrin artırılmasının əsaslandırılmasını xahiş edib:** "Mən deyəndə ki, rüsumlar iki dəfə artırılır, komitə sədri Tahir Mirkişili buna etiraz etdi, dedi ki, 2-3 dəfəlik artım olmayıb. Hər deputat çıxışı zamanı məsuliyyətini dərk edir. Mən rəqəmləri havadan səsləndirmirəm. Layihədə dəyişikliklər, 50, 70, 100 faiz aralığında rüsumların artdığı göz önündədir. Əgər 10 rəqəmi 20 ilə əvəzlənirsə, komitə sədri hansı əsasla deyir ki, iki dəfə artım yoxdur?!".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Sabir Rüstəmxanlının iradlarını cavabsız qoymayıb. T.Kərimli bildirib ki, Sabir Rüstəmxanlı keçən dəfə 2-3 dəfə artımın olduğunu demişdi:** "Ona cavab olaraq layihədə 3 dəfəlik artımın olmamasını, artımın ortalama 30-40 faiz arasında olduğu deyilib. İndi dedikləri isə fərqli rəqəmlərdir. Sabir Rüstəmxanlının başqa fikri olarsa, görüşüb, izahat verərəm".

**"Əli Nağıyevin təyinatından sonra DTX dövlət maraqlarına xidmət edən quruma çevrilib"**

**"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edən millət vəkili Fazil Mustafa bildirib ki, Əli Nağıyev rəis təyin olunandan sonra Dövlət Təhlükəsizliyi Xidməti dövlət maraqlarına xidmət edən quruma çevrilib:** "Vətən müharibəsində də biz bunu gördük. Əvvəllər bu qurum sahibkarları incidən və digər mənfi əməllərlə yadda qalıb. Amma hazırda qurumun fəaliyyəti təqdir olunmalıdır". Deputat qeyd edib ki, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə bağlı çalışan insanların maaşlarını artırmaq, mənzil-məişət məsələlərinin həlli üçün büdcədən daha çox vəsait ayırmaq lazımdırsa, büdcədən ayrılsın: "5 faiz məsələləri ilə onları gündəmə gətirməyi məqsədəuyğun saymıram". Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli isə deyib ki, 5 faiz məhz büdcədən ayrılır: "Həmin qurumların əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə o qurumların xəzinə hesabına köçürülür". Qeyd edək ki, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə yeni maddə əlavə olunması təklif olunur. Həmin maddəyə görə, dövlətə vurulmuş ziyanın ödənilməsi üçün ibtidai araşdırma dövründə büdcəyə ödənilməsi təmin edilmiş vəsaitin 5 faizi müvafiq icra hakimiyyəti orqanının əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsinə sərf olunsun.

**"Onlar günün 24 saatı çalışırlar..."**

**Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov isə xüsusi xidmət orqanlarına büdcədən daha çox vəsait ayrılmasını təklif edib:** "Prokurorluq orqanları ilə təhlükəsizlik orqanlarının fəaliyyətini eyniləşdirmək düzgün deyil. Digər qurumlara bu məqsədlə ayrılan məbləğ 5 faiz deyil, daha yüksək, 25-50 faiz həcmindədir". S.Novruzov deyib ki, xüsusi xidmət orqanlarına ayrılan vəsait daha da artırılmalıdır: "Çünki onlar günün 24 saatı çalışırlar, xüsusi qurğular alır, dövlətin təhlükəsizliyinin qorunması istiqamətində böyük işlər görürlər".

**Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov isə nəzərə çatdırıb ki, indiyə qədər 11 dövlət qurumuna belə güzəşt verilib, bu, ilk dəfə deyil:** "Dövlət başçısı da Vətən müharibəsində xüsusi xidmət orqanlarının fəaliyyətini yüksək qiymətləndirmişdi. Prezident İlham Əliyev demişdi ki, xüsusi xidmət orqanları o gözlədiyindən də yaxşı işləyib. Mən 5 faiz məsələsində problem görmürəm, hətta Siyavuş Novruzovun dediyi kimi, bunu daha da artırmaq yaxşı olardı".

**"Bir adam gündə 3 səhifə yazar, daha 70-80 yox"**

**Milli Məclisdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edən deputat Siyavuş Novruzov bildirib ki, institut direktoru əməkdaşın, elmi rəhbər digərinin kitabını, məqaləsini öz adına çap edir.** Bəzən kitablara baxanda məlum olur ki, bir adam bir gündə 70-80 səhifə yazıb. Bu da mümkün deyil. Adam bir gündə 3 səhifə, lap təbi gəlsə, uzağı 10 səhifə yazar, daha 70-80 səhifə yox. Yəni gündə 70-80 səhifə yazılıbsa, bu, plagiatdır. Ona görə də müəlliflik hüququ ilə bağlı məsələlərə diqqət ayrılmalıdır". Komitə sədri nəzərə çatdırıb ki, bu gün kitab çapı ilə bağlı çoxsaylı müraciətlər olur: "Bizə də müraciətlər olur. Ancaq hazırda kitab çapının müxtəlif formaları var. Elektron qaydada internetdə yerləşdirilər və pulunu ödəməklə insanlar o kitabla tanış ola bilərlər".

İsmayıl Qocayev

**İsveçin paytaxtı Stokholmda Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə rusiyalı həmkarı Sergey Lavrov arasında dekabrın 2-də görüş keçirilib.**

Bu barədə Rusiya XİN-in Tviter hesabında paylaşım edilib. Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığının olacağı da gözlənilir. Son dönəm Türkiyə-Rusiya münasibətlərində stabilliyin yarandığı, pozitiv addımların atıldığı məlumdur.



# "Türkiyə və Rusiya ortaq birləşmə nöqtələri tapıb"

Turab Rzayev: "Bu iki ölkə hibrid xarici siyasətdən istifadə edir..."

Türkiyə-Rusiya yaxınlaşmasının "görünməz" məqamlarını "Şərq"ə şərh edən analitik Turab Rzayev bildirib ki, hər iki ölkə öz regional siyasətini aparmağa çalışır. Onun sözlərinə görə, Rusiya əvvəlki qədər qüdrətli olmasa da, dünya siyasətində aktiv rol oynayır: "Eyni şəkildə Türkiyə regional gücdən dünya siyasi müstəvisinə atılan bir ölkədir. O, zamanla Yaxın Şərqdə, Balkanlarda, Qafqazda, Qara dənizdə öz təsir dairəsini genişləndirir. Müşahidə edirik ki, getdikcə Türkiyənin artan təsiri ilə Rusiyanın coğrafi nüfuz dairəsi kəsişir. Bu, iki ölkə arasında münaqişə və düşmənçilik yaratmır. Əksinə, əməkdaşlıq imkanları yaradır".

*T.Rzayev hər iki ölkənin qlobal təhlükəyə, xüsusilə NATO və ABŞ-ın istəklərinə qarşı bəzən öz maraqlarını uyğunlaşdırıb, qoruduqlarını söyləyib:* "Rusiya Türkiyə vasitəsilə Qərbə təsiri balanslaşdırır. Rusiya da eyni şəkildə Türkiyədən istifadə edərək həm NATO daxilində parçalanma yaratmağa, həm də Qərb blokunun vahid şəkildə iştirakına mane olmağa çalışır. Ona görə də bu iki ölkə hibrid xarici siyasətdən istifadə edərək ortaq birləşmə nöqtələri tapıb, əməkdaşlıq forması yaradırlar. Türkiyənin Ukrayna ilə bağlı dialoq təklif etməsini həm də bununla əlaqələndirmək olar".

**Siyasi şərhçi qeyd edib ki, Türkiyə artan nüfuzu müqabilində Qərbin qısqanclığının qarşısını almaq istəyir:** "Eyni zamanda, onun Yaxın Şərqdə nüfuzunun artmasından narahat olan ABŞ-ın təzyiqini Rusiya ilə neytrallaşdırmağa çalışır".

T.Rzayev rəsmi Moskvanın da hazırkı mövqeyinə nəzər salıb: "Rusiya isə Qərbin onu mühasirəyə almasının, sanksiyalar tətbiq etməsinin qarşısını almaq üçün Türkiyəni Qərbdən uzaqlaşdırmağa çalışır. Bu şəkildə o həm iqtisadi baxımdan özünü sanksiyalardan müdafiə etməyə, həm də siyasi cəhətdən qarşı cəbhəni zəiflətməyə səy göstərir".

Günəş Mərd

# Növbəti səfər Şuşaya olacaq

Səfirlər yerlə-yeksan edilən Ağdamı gözləri ilə gördü



**Xəbər verdiyimiz kimi ABŞ səfiri Li Litzenberqer və Böyük Britaniya səfiri Ceyms Şarp Ağdama birgə səfər ediblər. Səfər çərçivəsində qonaqlara dağıdılan yerlər göstərilib və şəhərin gələcək quruculuq işləri barədə məlumat verilib. Səfirlər bildiriblər ki, regionlara səfər onların işinin tərkib hissəsidir.**

Xatırladaq ki, Fransanın Azərbaycandakı səfiri Zakari Qrossun başçılıq etdiyi nümayəndə heyəti də bu günlərdə Ağdama səfər etmişdi. Maraqlısı odur ki, sözügedən ölkələrin səfirləri diplomatların Şuşaya təşkil edilən səfərində iştirakdan imtina etmişdilər. Görünür, Azərbaycan qısa müddətdə elə geosiyasi reallıqlar yaradıb ki, ölkəmizin atdığı addımlar bütün dünya tərəfindən qəbul olunur. O səbəbdən işğaldan azad olunmuş ərazilərə səfər edən xarici diplomatların sayı hər dəfə artır. Millət vəkili Aydın Mirzəzadə Amerika və Böyük Britaniya səfirlərinin Qarabağa səfərlərini müsbət qiymətləndirib: "Bu səfərlər BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçünün Ermənistan işğalının ağır nəticələrini və Azərbaycanın bərpa işlərində fəaliyyətini görməyə, obyektiv qiymət verməyə imkan verəcək.

Ümid edirəm ki, səfirlərin növbəti səfərləri Şuşaya və digər işğaldan azad edilmiş regionlara da olacaq".

İsmayıl

# Xankəndidə "heykəlçilik kampaniyası" əsəblərimizlə oynamaqdır

Moskva bölgədə qalmaq üçün əlindən gələni edir



"Rəsmi Bakı mövqeyini birmənalı ortaya qoymasa, ruslar və ermənilər Qarabağda çox hoqqadan çıxacaq"

**Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıları Xankəndi şəhərində erməni əsilli rus rəssam İvan (Hovhannes) Aivazovskiyə heykəl qoyublar. Büstün yaradıcısı rus heykəltəraş Mixail Serdyukovdur.**

Heykəlin açılışını etmək Rusiya sülhməramlı kontingentinin humanitar cavab mərkəzinin zabiti, mayor Sergey Lazevə tapşırılıb. Qeyd edək ki, bu, Rusiya sülhməramlılarının Xankəndidə ucaltdıqları ikinci heykəldir. Bundan öncə ucaldılan abidələr ruslara məxsus idi, amma bu dəfə erməni rəssama heykəl qoyublar. Göründüyü kimi, Rusiya sülhməramlıları ərazilərimizdə hələ də öz səlahiyyətlərinə aid olmayan fəaliyyətlə məşğuldular. Xüsusən, son dönəmlər Xankəndi və ətraf rayonlarda "heykəlçilik kampaniyası"na start verilib. Ekspertlərin fikrincə, bu cür təşəbbüslər Rusiya "sülhməramlılarının" Qarabağda uzun müddət qalmasına hesablanıb.

**Rusiya sülhməramlılarının ölkə ictimaiyyətinin hiddətinə səbəb olan növbəti addımını "Şərq"ə dəyərləndirən Ağ Partiyanın sədr müavini Əhəd Məmmədli deyib ki, torpaqlarımızda ağalıq edən rusların və separatçıların oyunlarına son verməyin zamanı çatıb.** Analitik vurğulayıb ki, ruslar və ermənilər həddini daha çox aşmamış təxribatçı addımların qarşısını almaq lazımdır: "Erməni mediası yazıb ki, Soçi görüşündə Azərbaycan tərəfi Qarabağda qondarma rejimə aid bez parçalarının ara-sıra görünməsinə sərt şəkildə etirazını bildirib və təxribatların davam edəcəyi halda hədəfin vurulacağını bəyan edib. Deyilənə görə, bundan sonra separatçılar "bayraq" dedikləri cındırları yığışdırıblar. Rəsmi Bakı Qarabağdakı bütün təxribat əməllərinə ən sərt formada reaksiya verməlidir. Bizim üçün fərq etmir ki, Xankəndi və ətraf rayonlarda təxribat törədənlər ermənilər, yaxud rus sülhməramlılarıdır. Zərurət olmadığı halda müəyyən obyektlərin inşa edilməsi, təməlqoyma mərasimləri, hərbi təlimlər, quldurlara heykəllər ucaldılması və s. bu kimi hərəkətlər heç də xoş məqsədlə edilmir. Xankəndi və ətraf bölgə Azərbaycanın tarixi və qanuni torpaqlarıdır. Orada atılacaq hər addıma, yerə qoyulacaq hər daşa görə rəsmi Bakıdan icazə alınmalıdır. Əks halda cavabımız hərbi güc müstəvisində verilməlidir".

**Ə.Məmmədlinin qənaətincə, mövqeyimizi birmənalı ortaya qoymasaq, ruslar və ermənilər Qarabağda çox hoqqadan çıxacaq:** "Separatçılar rahat ora-bura gəzişir, əsgərlərimizə hücum çəkir, silah işlədirlər. Ruslar da sanki öz əraziləri kimi Qarabağda istədiklərini edirlər. Əski parçasının asılmasına imkan yaradır, büst açır, heykəl qoyur, erməni "zəvvarları" daşıyır, binalar inşa edir və s. Rusiyanın bir məqsədi də müvəqqəti nəzarət etdiyi bölgəni, konkret Xankəndini ermənilər vasitəsi ilə ruslaşdırmaqdır. Moskva bölgədə daimi qalmaq, ən azından 5 illik müddəti uzatmaq üçün əlindən gələni edir".

İsmayıl Qocayev

**Üçtərəfli işçi qrupun dekabrın 1-də Moskvada keçirilən iclasında razılaşmaları formalaşdırmaq mümkün olmayıb. Bunu Ermənistan Təhlükəsizlik Şurasının rəhbəri Armen Qriqoryan Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin görüşünü şərh edərkən deyib.**

"Niyə tərəflər razılığa gəlmədi?" sualına, Qriqoryan belə cavab verib: "Azərbaycan müqaviləyə "dəhliz" məsələsini daxil etməyə çalışır ki, bu da Ermənistan üçün qəbuledilməzdir. Azərbaycan Soçidə əldə olunmuş razılaşmaların təşviqinə imkan verəcək siyasi iradə nümayiş etdirə bilməz".



# Moskvada razılaşma mümkün olmadı

İşçi Qrupunun görüşündə İrəvan prosesi pozub

Xatırladaq ki, regional kommunikasiyaların açılmasına dair razılaşma üç ölkə liderinin noyabrın 26-da Soçidə keçirilən görüşünün yekunları üzrə əldə edilib. Bu razılaşma Moskvada sənəd şəklində rəsmiləşdirilməli idi, lakin bu baş vermədi. Eyni zamanda erməni tərəfi yaxın vaxtlarda eyni səviyyədə daha bir görüşün baş tutacağını açıqlayıb. Ermənistan Təhlükəsizlik Şurasının rəhbəri isə faktiki olaraq Bakını Moskva görüşünü pozmaqda ittiham edib: "Biz yolları açmağa hazırıq, sovet dövründə mövcud olan infrastrukturun bərpasını müzakirə etməyə hazırıq. Azərbaycanın ərazisindən başqa ölkələrlə əlaqə üçün istifadə edə bilməyik. Eləcə də Azərbaycan Naxçıvanla əlaqə yaratmaq imkanı əldə etməlidir".

**İrəvanın qeyri-konstruktiv mövqeyini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Soçidə Putinin açıqlamasından çıxan nəticə belə idi ki, kommunikasiyanın bərpası ilə bağlı razılaşmlara İşçi Qrupunun görüşündə yekun vurulacaq və rəsmiləşəcək.** Ekspertin sözlərinə görə, İrəvan bununla təkcə Bakıya yox, Moskvaya qarşı da çıxır: "Soçi görüşündə iki nəticə əldə edildi. Bu, sərhədin delimitasiya və demarkasiyası üzrə birgə komissiyanın yaradılması və kommunikasiyanın açılması üzrə prosesə yekun vurulması idi. Amma bu məsələlər yekun bəyanata daxil edilmədi və məsələ İşçi Qrupun bu həftə nəzərdə tutulan görüşünə həvalə olundu. İşçi Qrupu müqavilə üzərində işləyir və bu, böyük ehtimalla kommunikasiyanın bərpa edilməsi qrafikinə aiddir. Rəsmi Bakı 10 noyabr razılaşmasında etmədiyini indi edir, Zəngəzur dəhlizini rəsmiləşdirir. Putinin çıxışında "dəhliz" ifadəsinə istinad etməsi və "üçtərəfli İşçi Qrupu Moskvada toplaşacaq" açıqlaması deməyə əsas verir ki, Soçidə şifahi razılaşma məhz Bakının mövqeyi kontekstində əldə olunub. Dövlət başçısı İlham Əliyevin bir gün sonra İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətləri Zəngəzur dəhlizindən istifadəyə dəvət etməsi də Soçi görüşünün nəticəsinə uyğun çıxış idi. Aydındır ki, İşçi Qrupunun görüşündə İrəvan prosesi pozub. Yaxın vaxtlarda növbəti görüşün keçiriləcəyi gözlənilir və məsələ yenidən müzakirə olunacaq. Nikol Paşinyanın Soçi razılaşmasını pozması İrəvanın gözləntilərindən irəli gəlir. 10 dekabrda Amerika Prezidenti Co Baydenin demokratik sammitinə Ermənistan da dəvət edilib. 15 dekabrda isə Brüsseldə Avropa İttifaqının quracağı masa var. Ermənistan bu görüşlərə ümid etdiyi üçün Moskvada "yox" deyə bilib. Hesab edirəm ki, bu proses ölkə rəhbəri İlham Əliyevin Soçidə verdiyi mesajın - "regionda təhlükəsizlik razılaşmalarının nəticələrinin icrasından asılıdır" - praktiki təbiqinə zərurət yaradır".

Paşinyanın Soçi razılaşmasını pozması İrəvanın gözləntilərindən irəli gəlir

İsmayıl Qocayev



**Mətbuat Şurası və Yazıçılar Birliyinin təşəbbüsü ilə "Azərbaycan dilindən düzgün istifadə: ədəbi-bədii mühit və media" mövzusunda bir neçə gün öncə keçirilmiş toplantının məruzəçisi yazıçı-dramaturq Seyran Səxavət idi. Dəyərli ziyalımızın ana dilimizə həssaslıqla yanaşdığı zatən məlumdur. Bu dəfə isə S.Səxavət 2021-ci ildə cəmi ay yarımlıq müddətdə televiziya kanallarında müşahidə etdiyi dil qüsurları ilə bağlı danışdı. Mövzunun zəruriliyini nəzərə alaraq Seyran müəlimə zəng edib, öz sözləri ilə desək, "reanimasiyada olan dövlət dilimiz"in həyata qayıtması üçün hansı təkliflərlə çıxış etdiyini öyrənmək istədik.**

# "Müəllimləri, həkimləri, hətta mollaları attestasiyadan keçirirlər"

## Seyran Səxavət: "Bəs televiziya işçilərini niyə söz azadlığı adı altında özbaşına qoymuşuq"

*Dramaturq "məruzəmdə bütün məsələlərə toxunmuşam. Təkliflər də orda var", dedi. Ana dilimizin - Dövlət dilimizin qorunmasına çalışan "Şərq" qəzeti də həmin məruzəni qısa ixtisarla oxucularımıza təqdim etməyi vacib bildi. Ümid edirik ki, oxucular arasında teleaparıcılar, telemüxbirlər, teleredaktorlar, tele-prezidentlər də olacaq.*

**"İki saat danışırsan, amma heç nə demirsən"**

Nala-mıxa vurmadan birbaşa mətləbə keçək. Dilin ən qaynar yerindən, kəndlinin televiziyaya verdiyi kiçik müsahibədən: "Telefonuma zəng daxil oldu, telefonumu açdım, telefonumda mənim nəzərimə çatdırdılar ki, anam avtomobil qəzasında iştirak eləyib. Mən qəzada anamın iştirak etdiyi yerə tələsdim, orda anama baxış keçirdim, anamın üzərində təcili yardım həyata keçirdəndən sonra o, dirçəlməyə doğru getdi". Bu, Azərbaycan kəndinin dili deyil və Azərbaycan kəndinin dili deyilsə, deməli, Azərbaycan dili də deyil. Bəs onda nədi? Bu, Azərbaycan televiziya məkanının dilidi - evlərimizin ən üzdü qonağı olan televiziyanın. Qəzaya düşmüş anası haqqında müsahibə verən bu kəndli kişi kameranı görəndə kim olduğunu, harda doğulduğunu, hazırda harda yaşadığını tam unudur, televiziya dilində, sığallı-tumarlı, ənlik-kirşanlı, tənginəfəs yarımcan cümlələrlə danışmağa başlayır, o da bizim televiziya məkanı kimi mədəni, təmtəraqlı görünmək istəyir. Kənddən başqa bir müsahibə: "Durduğum yerdə maşınımın arxa nahiyəsindən həmlə edərək maşınımın arxa nahiyəsini əzdi, mən də maddi ziyana düşdüm, maşınımın orası da maddi ziyana düşdü". Şərhsiz... Uzun sözün qısası: Ölkəmizdə fəaliyyət göstərən televiziyaların "qayğısı və diqqəti" sayəsində Azərbaycan dili elə bir vəziyyətə gəlib çatıb ki, bu dildə ara vermədən iki saat danışarsan və heç nə deməyə bilərsən - bu, əsl dəhşətdir:

**Dilimizə kim qarğış edib?**

**Seyran Səxavət hazırda dövlət dilimizə münasibətdə baş verənlərin İkinci Dünya müharibəsində konslagerlərdə insanlar üzərində aparılan amansız təcrübələri xatırlatdığını deyir:**

- Yumşaq desək, televiziya kanalları Azərbaycan dilinin varlığında görünməmiş "cərrahiyyə əməliyyatları" aparmaqla onu zəiflədir, nəticədə dilin "astması" diaqnozu ilə üzbəüz qalırıq. Dünyanın hər yerində dilin yaradanı, cilalayanı, inkişaf etdirib qoruyanı xalqdı - əgər xalq öz dilini, dərinə getsək, özünü unudub televiziya dilində danışmağa başladısa, bu, başlanğıc deyil, sondur. Şifahi xalq ədəbiyyatı ilə azdan-çoxdan qaynayıb-qarışmış biri kimi deyə bilərəm ki, adamları göyün yeddi qatına qaldıran alqışlar olduğu kimi, insanların yeddi qatından keçən qarğışlar da var. Bu qarğışların içində ən dəhşətlisi ikicə kəlmədən ibarətdir: Dilin qurusun! Dilimizə kim qarğış eləyib - bizə ancaq etiraz eləmək qalır: Ağzından çıxsın qoynuna düşsün! Ölkəmizdə müəllimləri, həkimləri, hətta mollaları da attestasiyadan keçirirlər. Bəs televiziya işçilərini niyə söz azadlığı adı altında özbaşına qoymuşuq? Ümumiyyətlə, Dövlət dilimizə - ana dilimizlə bağlı münasibətdə ölünü də özbaşına qoymaq olmaz, yoxsa kəfəni yırtıb çıxar və bir də görərik ki, bu ölülər dünyanın hər yerindən boy verib görünən, nəhəng Palıd ağacının - Azərbaycan dilinin dibinə neft tökürlər ki, qurusun, bilərəkdən, ya bilməyərəkdən - fərq etməz. Hər yoldan ötəni gətirib ona ekran etibar eləyəndə, o da özü kimi üzdəniraqları qonaq sifəti ilə (təbii ki, hamıya aid deyil) dəvət edib Azərbaycan dili ilə mazaqlaşacaqdı da. Onlar hardan bilsin ki, cümlə qurmaq Dövlət qurmaq qədər çətindir?!.

"Televiziya kanalları Azərbaycan dilinin varlığında görünməmiş "cərrahiyyə əməliyyatları" aparmaqla onu zəiflədir"



"Cümlə qurmaq dövlət qurmaq qədər çətindir"

Azərbaycan dilini çox zəif bilən, ingilis dilində bülbül kimi cəh-cəh vuran adam ən yaxşı halda yarımingilis və dörddə bir azərbaycanlıdır. Bu həm də demoqrafik məsələdir

**Aldı görək televiziyalarımız nə dedi**

*Yazıçı-dramaturq məruzəsində qeyd edir:* "Ölkəmizdə Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu (Nəsimidən ayıbdı axı...) və mənim aləmimdə bu işlərə birbaşa cavabdeh olan Milli Teleradio Şurası var. Özü də hər iki təşkilatın adının əvvəlində Milli... Milli... Bu, milli olmadı ki, cənablar. Bəs, siz hara baxırsınız? Sizlərin bu gün hara baxdığını dəqiq bilməsəm də, deyərdim ki, zəhmət olmasa, Dövlət başçısına tərəf baxın Prezident İlham Əliyev noyabrın 1-də Azərbaycan dilinin qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb. Yeri gəlmişkən deyək ki, belə sənədin imzalanması ilk deyil; yəqin ki, axırıncı da olmayacaq. Dilimizin saflığının ən yüksək səviyyədə dəstəklənməsi sevindirir, ancaq gəlin görək bu sevinci ürək dolusu yaşaya bilirikmi? Cavab xeyli qəlizdir və qəlizləşə-qəlizləşə də gedir. Bizim borcumuz bu gedişatın qarşısını almaqdır. Birinci növbədə, Azərbaycan dilinin kövrək ərazisinə diqqət yetirsək vəziyyətin ürəkaçan olmadığını görəcəyik. Əgər siz də mən baxan tərəfdən baxsanız, qarşınızda nəhəng döyüş meydançasını xatırladan bir görüntü açılacaq: mühasirədə qalan və mühasirəyə alanlar. Gəlin hər şeyi öz adı ilə deyək: mühasirədə qalan Azərbaycan dilidir. Mühasirəyə alanlar isə aşağıdakılardır: Televiziyalar. Radiolar. Saytlar. Mətbuat. İndi isə Azərbaycan dilinin ağır vəziyyətdə olduğuna sizləri inandırmaq üçün keçək faktlara.

Aldı görək televiziyalarımız nə dedi:

"Soyğunçuluğa imza atmış oğrular". Belə çıxır ki, oğrular heç kəsə məlum olmayan qanun-qayda ilə soyğunçuluq eləyəndən sonra bu məsələni sənədləşdirir və altına da imza atırlar ki, bəli, oğru bizik. Heç elə də şey olar?!. Dünyanın heç yerində görünməyən məntiqsizlik zirvəsi. "Səhər yeməyini həyata keçirmək". Sözüm yoxdu "Yanğınsöndürənlər alova müdaxilə etdilər". Sözüm yoxdu " Verilişimiz gözəl baş tutdu". Ümumiyyətlə, "baş tutdu" sözündən birdəfəlik imtina etmək lazımdır, çünki bu söz birləşməsi mini təxribatdır, dilimiz bunsuz da yaşaya bilər. "Güllələrə məruz qalerıx". Bunu da televiziya dilində danışmaq istəyən xalq deyir. "Messi rəqiblə toqquşub yerə yıxıldı". Mən bu yaşa gəlmişəm, kiminsə göyə yıxılmağını eşitməmişəm. "Havanın hərarəti (istiliyi) müsbət (isti) otuz iki dərəcə isti təşkil edəcək". "Külək topun hərəkətlənməsinə səbəb olur". "Tualet təmizləməkdə güclü mütəxəssis (təmizləyici toz nəzərdə tutulur)". "Jüri finalının biletləri satılacaq". Jüri finalı nə deməkdi, axı?.. "Sahibsiz it məktəbdən gələn uşağı dişlədi". İt dişləmir, tutur. "Həyətində işləyən altmış yaşlı qadını ilan sancdı". İlan ağcaqanad deyil ki, sancsın - ilan vurur. "Camaatı təxliyyə etdilər". Köçürdülər. "Axtarışı həyata keçirirlər". Televiziya məkanında "həyata keçirmək" sözünün bəxti açılmaq bilmir ki, bilmir. "Çoxlu izdiham gördük". İzdiham elə çoxluq deməkdi (adam çoxluğu), əgər belədirsə "çoxlu izdiham" nə deməkdi, hansı dildədi?. " Qapımızdan gətirdiyimiz toyuğu, hinduşqanı ucuz qiymətə xalqa təqdim edirik". Bu nə təqdimat mərasimidi axı? Yuxarıdakı sözləri kənddən yarmarkaya gəlmiş adam deyir. "Balıq dadmayan balıq yağı". "Üstdad kolbasaları". Üst, orta və alt dad olmur- dad olur, ya da olmur. "Yaxşı, bərpa olub qurtardın?". Bir kinofilmdən - demək istəyir ki, özünə gəldin? "Topu (futbol) başla tora yerləşdirdi". (?) " Hərarət (istilik) doqquz dərəcə şaxta olacaq"(?) " Evakuator maşını cərimə meydançasına daşıdı". Daşıdı yox, apardı. Daşımaq başqa şeydi. "Duş qəbul eləyin". Duşun, yaxud suyun altına girin. Duş yüksək çinli dövlət məmuru deyil ki, onu qəbul edək. "Rəqib oyunçunun komanda yoldaşına ötürdüyü topu qarşılaya bilmədi". Adamı qarşılayarlar, topu alarlar. "Ətləri (əti) basdırma eləmisiniz?" "Apteki fəaliyyətə salacaqlar". "Kəpəyə qarşı çempion" və ilaxır və sair. Bu cür misalların sayını nə qədər desən uzatmaq olar, nəticədə çox uzuuun bir yol alınar - lap elə burdan Şuşaya qədər Bütün bunlar hələ mənim 2011-ci ildə televiziyadan bir ay, ay yarım müddətində ara-sıra götürdüyüm qeydlərdi. Özünüz hesabınızı götürün də Orasını da deyim ki, dilimizi güvə kimi yeyən bu cür faktların, hansı ayın neçəsində, hansı televiziyanın hansı verilişində, saat neçədə və kim tərəfindən efirə getməsi də məlumdur. Dilimizin xətrinə zərurət yaransa onu da açıqlaya bilərik. Fevralın 21-də "İdman" kanalında "Saraqoza" - "Real Betis" futbol komandalarının görüşündə şərhçi deyir: Bu hücum öz inkişafını tapa bilmədi. Cümlədə altı söz işlənib, halbuki ordakı fikri iki sözlə də ifadə etmək olar: hücum alınmadı. Demək istəyirəm ki, cümləni yerli-yersiz sözlərlə həddindən artıq ağırlaşdırmaq, yükləmək olmaz. Elektrik naqillərini həddindən artıq yükləyəndə qısa qapanma yaranır. Cümlə də dilin naqilidi, onu da həddindən artıq yükləyəndə qısaqapanma yaranır - Dilin qısa qapanması.

**"Xəstə dildə sağlam düşüncə olnur"**

*S.Səxavət qeyd edib ki, yuxarıda sadalanan saysız-hesabsız faktların hamısı yalnız televiziya məkanından götürülüb və radiolardan, saytlardan, yazılı mətbuatdan götürülmüş faktlar hələ açıqlanmayıb.*

- Bu cür vəziyyətdə dil doğub-törəməz olur. Doğub-törəməz Dil isə sonsuz qadınlar kimidir, nəsil yavaş-yavaş itir. İnsanın nəsli itdiyi kimi, belə demək mümkündürsə, Dilin də nəsli itir. Çünki Dil insan deməkdir. Çünki İnsan Dil deməkdir. Dildəki bütün xüsusiyyətlər İnsanda, İnsandakı bütün xüsusiyyətlər dildədir. Dili qorumağın ən real yolu onu korlamamaqdır. Əgər korlamasaq, Dilin özünü qorumaq instinqdi - cəhdi daha da güclənər və gəlib bu vəziyyətə düşməz. Azərbaycan dilini çox zəif bilən, ingilis dilində bülbül kimi cəh-cəh vuran adam ən yaxşı halda yarımingilis və dörddə bir azərbaycanlıdır. Bu həm də demoqrafik məsələdir. Çünki sən mənən azərbaycanlı olmasan da, sənəddə bizlərdən biri kimi sayılırsan. Ona görə də hələ 1988-ci ildə Az.TV-dəki "Üzbəüz" verilişində demişdim ki, "öz dilini bilməyən azərbaycanlını mən emiqrant hesab edirəm". Belə "emiqrant" çoxluğuna qətiyyən yol vermək olmaz, yoxsa doğma dilimiz kəkələyər, peltək olar. Xəstə dildə sağlam düşüncə olmur. Sağlam düşüncəli şəxs təpədən-dırnağa silahlanmış adam kimidir - aralıdan görüntüsü bəs eləyir İmkan daxilində Azərbaycan dilinin - Dövlət dilimizin ərazisində baş verənlərlə tanış olduq. Vəziyyətin son dərəcə ciddi olduğunu bir daha anladım. Əgər təcili tədbirlər görüb konkret addımlar atılmasa, Ana Dilimiz komaya düşə bilər. Məşhur bir deyim var: Öz ordusunu yedirtməyən xalq, başqasının ordusunu yedirdər. Bu məntiqdən çıxış edərək: Öz dilini qorumayan xalq, başqasının dilində danışmalı olacaq. Uzun illərdi ki, sözləri tumarlaya-tumarlaya təmtaraqla danışırıq, nəticədə dilimizin şirinliyi -şirəsi çəkilir və ilanı yuvasından çıxartmağa qadir olan möhtəşəm Azərbaycan dili əncir qurusuna oxşayır. Mənim aləmimdə televiziyada Azərbaycan dili adı ilə dinləyicilərə sırınan cümlələr, cümlələrin içindəki sözlər çox əzilib-büzülür. Deyəsən, o cümlələrin, o sözlərin böyük əksəriyyətini gecələr Tbilisi prospektində adam şəklində görənlər olub... Dilin namusu elin namusudur - O toxunulmazdır! Bu, deputat toxunulmazlığına bənzəməz - Dilin namusuna toxunmaq, Torpağın namusuna toxunmaq kimi qəbul olunmalıdır! Əks halda Ulu öndər Heydər Əliyevdən yadigar qalan konstitusiyadakı məlum və məşhur maddəni dəyişib belə yazmalı olacağıq: - Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan televiziya məkanının dilidir.

**Təklif...**

**Seyran Səxavət Azərbaycan dilinin korlanmasında əsas səbəbkarın Azərbaycan Televiziya məkanı olduğunu nəzərə alaraq təklif edib ki, birincisi, dilçilərdən və söz adamlarından yaradılmış qrup, televiziyada gedən verilişlərin dili barədə növbətçilik etsin.** İkincisi, dillə bağlı nöqsanları televiziya rəhbərinin nəzərinə çatdırsınlar. Üçüncüsü, dillə bağlı nöqsanlar təkrar olduqda televiziya rəmzi məbləğlə - 100 manat cərimə olunsun. Dördüncüsü, dillə bağlı nöqsanlar yenə təkrar olduqda həmin televiziya 100 min manat (yüz min manat) cərimə olunsun. Bu da kömək eləməsə həmin televiziyanın lisenziya məsələsinə yenidən baxılsın və lazım gələrsə fəaliyyəti dayandırılsın. Yoxsa Azərbaycan dili öz fəaliyyətini dayandıracaq. Seçim özümüzündü. S.Səxavət qeyd etdi ki, bu təklifi radiolara, saytlara və yazılı mətbuata da tətbiq etmək olar.

**Məlahət Rzayeva**

# Video şantajı...

## Bakıda gənc qızı intihara sövq edən 17 yaşlı oğlan həbs olunub



**"Noyabrın 27-si saat 15 radələrində paytaxtın Yasamal rayon sakini 2003-cü il təvəllüdlü Fidan Nəftəliyevanın yaşadığı binanın 10-cu mərtəbəsindən özünü ataraq intihar etməsi faktı ilə bağlı Yasamal rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125 (özünü öldürmə həddinə çatdırma) və 242-ci (pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma) maddələri ilə cinayət işi başlanmaqla istintaq olunur".**

Bu barədə "Şərq"ə Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

Aparılan istintaqla müəyyən edilib ki, 2004-cü il təvəllüdlü Kərim İbrahimov cari il noyabrın 21-də Fidan Nəftəliyevanın mobil telefonunu oğurlamaqla telefonda olan sonuncuya məxsus şəxsi həyatının sirri hesab olan məlumatları qanunsuz əldə edərək onun ləyaqətini mütəmadi olaraq alçaltmaqla özünü öldürmə həddinə çatdırıb.

Kərim İbrahimov Cinayət Məcəlləsinin 125, 156.1 (şəxsi həyatın toxunulmazlığını pozma), 177.2.5 (oğurluq) və 242-ci maddələri ilə ittiham elan edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

# Ermənistan bizi hərbi gücdən istifadəyə məcbur edir

## Hərbçimizə hücum edən erməninin zərərsizləşdirilməsi göstərir ki, təxribatlar hələ bitməyib

*"Qarabağdakı separatçılar, silahlı ermənilər nəzarət olunmayan qüvvələr halına gəlməkdədir"*



**Azərbaycan Ordusunun Xocavənd rayonu ərazisində yerləşən mövqelərdən birində döyüş növbətçiliyi aparan hərbi qulluqçumuz bir erməninin hücumuna məruz qalıb.**

Həmin şəxs silahı ələ keçirməyə cəhd göstərib. Hərbi qulluqçumuz havaya atəş açaraq ona hücum edən təxribatçını zərərsizləşdirib. Hadisə barədə Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib. Faktla bağlı araşdırma aparılır. Xatırladaq ki, bu, Şuşadakı postumuza qumbara atan terrorçu Mirzoyandan sonra ikinci hadisədir. Bəzi ekspertlərə görə, müxtəlif səviyyələrdə baş tutan təmaslar öncəsi baş verən bu cür təxribatların əsas hədəfi danışıqları və razılaşmaları pozmaqla yanaşı, həm də Qarabağda birgəyaşayışın mümkün olmadığını göstərməkdir.

**Politoloq Natiq Miri hesab edir ki, Qarabağdakı separatçılar, silahlı ermənilər nəzarət olunmayan qüvvələr halına gəlməkdədir. Ekspertin fikrincə, cinayət ünsürünə çevrilən silahlı ermənilər bir çox maraqlı dairələrin maşasına çevrilə bilər**: "Separatçı rejimə Rusiya sülhməramlılarının, "Qarabağ klanı"nın, erməni ordusunun tərkibindəki rus kəşfiyyatına bağlı hərbçilərin və digər qrupların yön verməsi, onları himayə etməsi mümkündür. Bir çox hallarda erməni quldurlarının əliylə həyata keçirilən təxribatlar siyasi məqsədlərə qulluq edir. Nəzərə alaq ki, indiki təxribat sülh sazişi ilə bağlı müzakirələrin getdiyi, bəzi razılaşmaların əldə olunduğu, Zəngəzur dəhlizinin açılması yönündə addımların atılması ilə paralel baş verir. Əldə olunmuş müəyyən anlaşmalar sabotaj edilir. Problem odur ki, Ermənistan hökumətinin konkret planı, proqramı yoxdur. Hansı aparıcı dövlət İrəvana təsir edirsə, Paşinyan qısamüddətli də olsa həmin ölkənin təlimatını, sifarişini həyata keçirir. Soçi görüşündə əldə olunmuş müəyyən şifahi razılaşmaların pozulması da bununla bağlıdır".

**N.Miri diqqətə çatdırıb ki, Qarabağda təxribatların miqyası genişlənməkdədir:** "Hadrut və Şuşa istiqamətində tərəflər arasında saatlarla davam edən atışmanın baş verməsi ilə bağlı xəbərlər yayılıb. Bunlar göstərir ki, erməni təxribatı hər zaman gündəmdədir. Rusiya sülhməramlıları isə ya bilərəkdən bu cür hadisələri görməzdən gəlir, ya da Moskvanın İrəvana, Qarabağdakı separatçılara təsir imkanları getdikcə zəifləyir. Artıq Kreml rəhbərinin bəyanatları belə Ermənistanda qulaqardına vurulur. Ona görə də hesab edirəm ki, Ermənistanla hansısa anlaşma kontekstində deyil, hərbi güc tətbiq etmək yolu ilə ermənilərin fəaliyyətini məhdudlaşdırmalıyıq. Elə şərait yaratmalıyıq ki, ermənilər təxribat üçün imkan və cəsarət tapmasınlar".

**İsmayıl Qocayev**

# "Ağ Ev Kremllə qarşıdurmanın ilk mərhələsini uduzub"

## Elçin Xalidbəyli: "ABŞ-Rusiya münasibətlərinin yaxın gələcəkdə yumşalma ehtimalı inandırıcı görünmür"



Günəş Mərdiyeva

**Rusiya Prezidenti Vladimir Putin və Ağ Evin rəhbəri Co Bayden dekabrın 7-də onlayn iclas keçirəcəklər. Bu barədə Rusiyanın "Kommersant" nəşri məlumat verib. Xəbərə görə, liderlər iki sammit keçirməyi planlaşdırır. Onlardan biri 2021-ci ilin sonlarında onlayn formatda, digəri isə 2022-ci ildə əyani şəkildə baş tutacaq. Xatırladaq ki, rəhbərlər ilk dəfə bu il iyunun 16-da İsveçrənin Cenevrə şəhərində görüşüblər.**

**Supergüclərin arasındakı görüşü, birgə iştirak edəcək tədbirləri "Şərq"ə dəyərləndirən "Müstəqil Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli bildirib ki, Prezident Co Baydenin hakimiyyətə gəlişindən sonra ABŞ-Rusiya münasibətlərində gərginlik artan xətt üzrə inkişaf edir:** "Bu, Bayden administrasiyasının siyasi kursudur. Çünki məhz prezident Co Bayden hakimiyyətə gəldikdən sonra iki nəhəng dövlət - Rusiya və Çin ABŞ-ın rəsmən beynəlxalq düşməni elan edilib. Bayden administrasiyası ABŞ-ın itirilmiş beynəlxalq mövqelərinin geri qaytarılması cəhdlərini Rusiya və Çin ilə düşmənçilik səviyyəsində rəqabət üzərində indeksləşdirməyə çalışır. Prezident Co Bayden hakimiyyətə gələn kimi Rusiya Prezidenti Vladimir Putini "qatil" adlandırmışdı. Ardınca NATO baş katibi Stoltenberqin dili ilə Rusiyanı hədələmişdi. NATO baş katibinin Rusiyaya həddini bildirməklə bağlı açıqlamalarının Ağ Evin Kremli təhdid sifarişindən qaynaqlandığı qətiyyən şübhə doğurmur".

*Politoloq Rusiyaya qarşı mübarizədə NATO ilə paralel hərəkət edən Ağ Evin Kremllə qarşıdurmanın birinci mərhələsini artıq uduzduğunu söyləyib:* "Belə ki, Ukrayna ətrafında yaradılmış hərbi-siyasi qarşıdurmada ABŞ və NATO Rusiya qarşısında geri çəkilmək məcburiyyətində qalmışdı. Ağ Ev də bu qüvvələrin Rusiya ordusu ilə silahlı toqquşmasının doğura biləcəyi nəticələrin məsuliyyət yükünü öz üzərinə götürməyə cəsarət etmədi. İndi isə artıq bu hərbi-siyasi qarşıdurmanın növbəti mərhələsi başlayıb. Senari yenə də eynidir. Bu dəfə də Rusiya sərhədləri ətrafında canlı qüvvə və hərbi texnika cəmləşdirilir. Üstəlik, qarşıdurmanın mərkəzinə Ukrayna yerləşdirilib. Eyni zamanda, yaxın gələcəkdə Almaniyada olan nüvə başlıqlarını Polşaya yerləşdirmək barədə qərar qəbul edilib. Bu, Rusiyanın nüvə zərbəsi təhlükəsi ilə üzləşmə ehtimalını artırır".

**E.Xalidbəyli hazırkı durumda ABŞ və Rusiya arasında qarşıdurmanın zəifləmə ehtimalının hələlik mümkün olmadığını və tərəflər arasındakı gərginliyin daha da intensivləşə biləcəyini deyib. Politoloq eyni zamanda baş tutacaq Bayden-Putin görüşünə diqqət çəkib:** "Burda ilk növbədə qarşıdurmanı dərinləşdirən faktorların müzakirə olunacağını ehtimal etmək olar. Ona görə də iki prezidentin görüşündə Ukrayna böhranı, Polşada NATO-nun nüvə hərbi bazasının yerləşdirilmə niyyəti, Rusiya ətrafında ABŞ və NATO hərbi qüvvələrinin cəmləşdirilməsi, eyni zamanda, Rusiyanın Ukrayna sərhədlərinə qoşun toplaması və s. kimi bir sıra önəmli mövzular müzakirə oluna bilər".

**Elçin Xalidbəyli ABŞ-ın indidən Rusiyanı daha sərt sanksiyalar ilə hədələdiyini diqqətə çatdırıb:** "Ağ Ev Kremlə xəbərdarlıq edir ki, Rusiya Ukraynaya hərbi müdaxilə edərsə, əvvəllər tətbiq olunmasından çəkindikləri daha ağır sanksiya növlərini işə salacaqlar. Bu, Ağ Evin Rusiyaya qarşı həmin qorxunc sanksiyaları işə salmaq üçün bəhanə qazanmağa can atdığını göstərir. Ona görə də ABŞ-Rusiya münasibətlərinin yaxın gələcəkdə yumşalma ehtimalı qətiyyən inandırıcı görünmür".



**İran hakimiyyəti xalq etirazları ilə üz-üzədir. Teokratik rejimin sərt təzyiq və basqılarına rağmən kütləvi etirazlar səngimir. Əhalinin getdikcə daha da dərinləşən sosial-iqtisadi problemləri nümayiş dalğasını hər ötən gün daha da şiddətləndirir.**

# Etirazlar hələ yeni başlayıb

## Şərtlər, sanksiyaların tətbiqi İranda iqtisadi-sosial vəziyyəti daha da ağırlaşdıracaq

Az qala hər gün bu ölkənin hansısa şəhər və ya istehsal müəssisəsində işçilərin tətilləri barədə xəbərlər yayılır. Bəzi aksiyalar isə özünün miqyasına və ictimai-siyasi mahiyyətinə görə beynəlxalq aləmdə rezonans doğurur. Bununla da İranda sadə əhalinin məruz qaldığı çoxsaylı məhrumiyyətlərin üzərinə işıq salır. Son həftələrdə İranın üçüncü böyük şəhəri olan İsfahanda da kütləvi aksiya baş verib. Bəzi media orqanlarının "qanlı cümə" adlandırdığı bu nümayiş İran hakimiyyətini silkələyib.

**Məlum aksiyaların gətirib çıxaracağı nəticələr barədə "Şərq"ə danışan siyasi şərhçi Sədrəddin Soltan bildirib ki, Tehranda sosial etirazların baş verməsini şərtləndirən bir neçə amil var:** "Ölkədə iqtisadi vəziyyət günü-gündən ağırlaşır. Sanksiyalardan doğan təzyiqlər nəticəsində ölkədə hökumətin bir sıra güzəştləri ləğv etməsi, aztəminatlı əhalinin vəziyyətinin daha da ağırlaşması, mədəni sahədə əhaliyə verilən vədlərə əməl edilməməsi vəziyyəti gərginləşdirir. Həmçinin iqtisadi sahədə islahatların aparılmaması, texnologiyanın köhnəlməsi, yeni iş yerlərinin açılmaması, ölkəyə xarici sərmayənin qoyulmaması kimi məsələlər də kütləvi etirazlara yol açır".

**S.Soltan bunu da qeyd edib ki, 1979-cu il fevral inqilabının qarşıya qoyduğu məqsədin həyata keçməməsi də cəmiyyəti bir sıra hallarda siyasi şüarları silməyə vadar edir:** "Perspektivə ethimal etmək olar ki, əgər İran Altılıq ölkələrlə nüvə proqramına dair anlaşmasa, rəsmi Tehran qarşısına qoyulan şərtlərə əməl etməzsə, etiraz aksiyalarının gələcəkdə davam etməsi, genişlənməsi mümkündür. Çünki bu şərtlər, sanksiyaların tətbiqi İranda iqtisadi-sosial vəziyyətin daha da ağırlaşmasına şərait yaradacaq".

**Sücayət Mehti**



# Həmsədrlərin məqsədi sülhə əngəl olmaqdır

## Vaşinqton və Paris çalışır ki, Ermənistanda anti-Rusiya mövqeləri güclənsin

İsmayıl Qocayev

**ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin - Rusiya, ABŞ və Fransanın xarici işlər nazirləri Qarabağ nizamlanması ilə bağlı bəyanat qəbul ediblər. Bu barədə Rusiyanın Xarici işlər naziri Sergey Lavrov deyib.**

Onun sözlərinə görə, Rusiyanın Qarabağ münaqişəsinin həllindəki vasitəçiliyi Minsk qrupunun həmsədrləri olan ölkələr tərəfindən müsbət qarşılanır və bu məqam bəyanatda da əksini tapıb. Məlum olduğu kimi rəsmi Bakı həmsədrlərin fəaliyyətindən narazıdır və bu narazılığı həm 44 günlük müharibə zamanı, həm də müharibədən sonra bir neçə dəfə təkrarlayıb. Ölkə rəhbəri münaqişənin dinc yolla nizamlanmasında ATƏT-in Minsk qrupunun heç bir rol oynaya bilmədiyini deyib. Ermənistan isə Azərbaycanla sülh danışıqları prosesində kənarda qalmış Minsk qrupunun vasitəçiliyində israrlıdır. Həmsədrlər də öz növbəsində sərhədlərin delimitasiya və demarkasiyasında yardımlarını təklif edir, tərəfləri onların vasitəçiliyi ilə danışıqlara çağırırlar.

**Politoloq Təbriz Musayev "Şərq"ə bildirib ki, 28 il ərzində yeganə fəaliyyəti danışıqlar prosesini uzatmağa və nəticə etibarilə işğal altında olan torpaqlarımızın unudulmasına hesablanmış Minsk qrupunun ən "uğurlu" fəaliyyəti erməni maraqlarının xidmətçisi qismində çıxış etməsidir. Ekspert vurğulayıb ki, həmsədrlər faktiki olaraq BMT Təhlükəsizlik Şurasının məlum Qətnamələrinin icrası prosesini tormozlayırdı:** "Nəticədə Azərbaycan 44 günlük Vətən savaşı ilə həmin qətnamələri təkbaşına icra etdi və imzalanmış üçtərəfli bəyanatla "Dağlıq Qarabağ münaqişəsi" tarixin arxivinə çevrildi. Əgər münaqişə bitib deyiriksə, o halda Minsk qrupunun fəaliyyəti də bitmiş hesab olunmalıdır. Uzun illər ərzində danışıqlar prosesində hər hansı irəliləyişə nail ola bilməyən və ya olmaq istəməyən bir qurumun yenidən proseslərə cəlb olunması arzuolunan deyil. ABŞ və Fransanın məqsədi Rusiyanın ambisiyalarından bir o qədər də fərqlənmir. Hər üç ölkənin niyyəti Cənubi Qafqazda möhkəmlənməkdən ibarətdir".

*Siyasi şərhçiyə görə, nə Rusiyaya, nə də ABŞ və Fransaya Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh sazişinin imzalanması sərf edir:* "Rusiya gərginliyin davam etməsindən istifadə edərək regionda daha da böyük qüvvə ilə möhkəmlənmək istəyir. ABŞ və Fransa isə gərginliyin davam etməsi ilə Moskvanın təkbaşına vasitəçilik missiyasının iflasa uğraması görüntüsünü yaratmağa çalışır. Vaşinqton və Paris düşünür ki, Rusiyanın vasitəçilik missiyası iflasa uğrayacağı halda Ermənistan və erməni cəmiyyəti daha çox anti-Rusiya mövqeyində dayanacaq və etibarsız müttəfiq olaraq Rusiyadan üz döndərəcəklər. Başqa sözlə, digər həmsədr dövlətlərin məqsədi heç də danışıqlar prosesinə qoşulmaqla sülhə nail olmaq deyil. Tək məqsəd Ermənistandan istifadə edərək Rusiyanı regiondan uzaqlaşdırmaq və Cənubi Qafqazda möhkəmlənməkdir".

# Gürcüstan məqbul sayılacaq dialoq məkanlarından biridir

## Əfsuslar olsun ki, Cənubi Qafqazda digər güclərin, xüsusən Rusiya və Qərbin təzyiqi çox güclüdür və mümkün variantlara imkan vermirlər

İsmayıl Qocayev

**Gürcüstan Azərbaycan və Ermənistanla üçtərəfli dialoqun keçirilməsi üçün platforma olmağa hazırdır. Bunu Gürcüstanın Xarici işlər naziri David Zalkaliani ATƏT-in üzv ölkələrinin xarici işlər nazirlərinin görüşü zamanı deyib.**

Onun sözlərinə görə, dünya ictimaiyyəti Cənubi Qafqazda uzunmüddətli sülhün qurulmasında maraqlıdır: "Bu baxımdan, biz Azərbaycan, Gürcüstan və Ermənistanın aktual məsələləri müzakirə edəcəyi və müxtəlif səviyyədə görüşlər keçirə biləcəyi üçtərəfli dialoq platforması təşəbbüsünü təqdim etmişik".

**Zalkalianinin vasitəçilik təklifi ilə bağlı "Şərq"ə fikirlərini bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, Avropa ölkələri ilə yanaşı, Azərbaycan-Ermənistan arasında məqbul sayılacaq dialoq məkanlarından biri də Gürcüstandır. Analitikin sözlərinə görə, Cənubi Qafqaz ölkələri kənar müdaxilələr olmadan problemlərini özləri həll edəcək gücdədirlər:** "Əfsuslar olsun ki, Cənubi Qafqazda digər güclərin, xüsusən Rusiya və Qərbin təzyiqi çox güclüdür və mümkün variantlara imkan vermirlər. Gürcüstanın vasitəçilik təklifi bizim üçün qəbuledilməndir. Bilirsiz ki, Tbilisi erməni diversantlarla xəritələrin mübadiləsində mühüm rol oynadı. Ancaq prosesin sonu gəlmədi, çünki Moskva imkan vermədi. Kreml indiki təkliflə də razılaşmadığı üçün reallaşmasına mane ola bilər. Hətta Gürcüstanın təklifi reallaşsa belə Rusiya təmaslardan öncə Soçi görüşü kimi təşəbbüs irəli sürəcək".



*Politoloq düşünür ki, regionda sülh və sabitliyin yaranması Rusiyanın bölgəyə nəzarətinin zəifləməsi deməkdir:* "Ona görə də Moskva bütün gücü və imkanları ilə çalışır ki, region ölkələrini özündən asılı vəziyyətdə saxlasın. Əlbəttə, hansı dövlət üzərində bunu nə qədər bacarır, o başqa məsələdir. Qarabağ savaşına qədər Moskvanın təzyiq rıçaqları daha güclü idi. Amma müharibədən sonra vəziyyət dəyişdi. Çünki ortada qalib Azərbaycan və Türkiyə faktoru var. Kreml Ankara ilə hesablaşmağa məcburdur. Ermənistan üzərində isə hələ də Rusiyanın təzyiqi güclüdür. Türkiyə və İranın Ermənistanla sərhədləri rus qoşunları tərəfindən qorunur. Məqsəd Azərbaycanla sərhədə də rusları cəlb etməkdir".

# Niyə Azərbaycan İsraildə səfirlik açmır?

## Əhəd Məmmədli: "Bu reallaşarsa, islam dünyası, xüsusilə də ölkəmizə ən yaxın iki islam ölkəsi Türkiyə və Pakistan tərəfindən düzgün anlaşılmayacaq"

**İsrailin Azərbaycandakı səfiri Corc Dik iyulun 29-da İsrailin Təl-Əviv şəhərində Azərbaycan Respublikasının Ticarət və Turizm nümayəndəliklərinin açıldığını deyib. O, bununla bağlı iqtisadiyyat naziri də daxil olmaqla Azərbaycan rəsmilərinə Azərbaycan-İsrail əlaqələrinin güclənməsinə töhfə verdikləri üçün təşəkkür edib.**

Səfir İsrailin Azərbaycanla strateji münasibətləri inkişaf etdirməyi öz prioritetləri sırasına daxil etdiyini diqqətə çatdırıb. C.Dik eyni zamanda gələcəkdə İsraildə Azərbaycan səfirliyinin açılamasına ümid etdiyini də vurğulayıb.



**Azərbaycanın İsraildə səfirlik açmama səbəbləri barədə "Şərq"ə danışan AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli bildirib ki, İsrailin bir çox müsəlman ölkələri ilə diplomatik münasibətləri yoxdur:** "İsrail dövləti qurulanda bir neçə müsəlman dövləti ilə müharibə aparıb. Ona görə də İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və bir sıra ölkələr bu dövlətlə diplomatik münasibətlər qurmayıb. Qüdsün, Fələstinin işğalı da buna təsir göstərən amillərdəndir. Qüds müsəlmanlar üçün çox önəmli yerdir. Bu səbəbdən İsrailə qarşı münasibətdə bir çox müsəlman ölkəsi prinsipialdır. Azərbaycan da islam dünyasının bir hissəsi olaraq bunu nəzərə almağa məcburdur. Başlıca səbəb budur".

**Politoloq buna rağmən yəhudilərin Azərbaycanda hər zaman çox yaxşı yaşadığını vurğulayıb:** "İndi də Azərbaycanla İsrail arasındakı əlaqələr normaldır. Məlumdur ki, İkinci Qarabağ müharibəsindən sonra bu iki ölkə daha da yaxınlaşdı. İndi İsrail bu əlaqələrin daha da üst səviyyədə qalmasına çalışır və istəyir ki, sözügedən səfirliyin açılmasına heç bir problem qalmasın".

*Ə.Məmmədli indiki məqamda İsraildə Azərbaycan səfirliyinin açılmasının islam dünyası, xüsusilə də ölkəmizə ən yaxın iki islam ölkəsi - Türkiyə və Pakistan tərəfindən düzgün anlaşılmayacağını diqqətə çatdırıb: "Bu məsələdə ehtiyatlı davranmaq lazımdır".*

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Məlahət Rzayeva

# "Amnistiya Aktı çox böyük humanist addımdır"

## Səidə Qocamanlı: "Cəzası azaldılan, cəzasının çəkilməmiş hissəsindən azad edilənlər də var"



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 8 noyabr Zəfər Günü münasibətilə imzaladığı Amnistiya Aktı məhbuslar və onların doğmalarına ikiqat bayram sevinci yaşatdı. Əfv fərmanları və Amnistiya aktlarının imzalanması Azərbaycanda uzun illərdir ki, ənənəvi xarakter daşıyır. Hər il əlamətdar günlərdə cənab Prezident Əfv, yaxud da Amnistiya Aktı imzalyır. Bu isə dövlət siyasətində humanizm prinsiplərinin daim yüksək tutulması, insan hüquq və azadlıqlarının qorunmasına xüsusi əhəmiyyət verildiyini göstərir. Əfv fərmanı, ya da Amnistiya Aktının imzalanması, əlbəttə, cinayətkarların cəzasız qalması demək deyil. Cinayətkar cəzasını almalıdır ki, cəzasızlıq mühiti formalaşmasın. Lakin Azərbaycan dövləti, bununla yanaşı humanizm prinsiplərini də əsas tutaraq cəzasının müəyyən hissəsini çəkmiş, islah olunduğu aidiyyəti qurum tərəfindən təsdiqlənən şəxslərin, o cümlədən yaşlı, ahıl, müəyyən xəstəliyi olan məhbusların, həmçinin vaxtilə Vətən qarşısında xidmətləri olmuş şəxslərin cəzalarının müddəti bitməmiş azadlığa çıxmasında humanizm prinsiplərini üstün götürür. Bu il 8 Noyabr - Zəfər Bayramının birinci ildönümü münasibətilə Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunan və təsdiqlənən Amnistiya Aktının ümumilikdə 1500 məhbusa şamil edilib. Ədliyyə Nazirliyinin Probasiya Xidməti tərəfindən imzaladığı 5 noyabr tarixindən 3 dekabr tarixinə qədər azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş 1307 nəfərə Amnistiya Aktı tətbiq edilib. Bu barədə Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin rəisi Aqşin Ziyadov məlumat verib. O bildirib ki, qərarın icrası çərçivəsində yerli probasiya qurumlarının qərarları ilə 1158, məhkəməyə verilən 1414 təqdimat əsasında bu günə qədər 149 məhkum haqqında Amnistiya Aktı tətbiq edilib: "Onlardan 161 nəfər qadın, 1 nəfər yetkinlik yaşına çatmayan, 84 nəfər 60 yaşına çatmış, 2 nəfər Vətən müharibəsində iştirak edən məhkumlardır. "Amnistiya tətbiq olunmuş şəxslərdən 870 nəfər islah işləri, 260 nəfər cərimə, 28 nəfər ictimai işlər cəzasından azad edilən məhkumlardır. Bundan başqa azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərdən 134 nəfər cəzadan azad olunaraq onlara tətbiq edilmiş elektron qolbaqlar dərhal çıxarılıb, 15 məhkumun isə cəza müddəti 1 il azaldılıb", - deyə A.Ziyadov qeyd edib. İndiyə qədər akt 1787 şəxsə şamil edilib. Amnistiya Aktının ümumilikdə 15 min nəfərə şamil olunması gözlənilir. Zəfər Günü münasibətilə qəbul edilən Amnistiya Aktı Ədliyyə Nazirliyi Penitensiar xidmətin 17 saylı cəzaçəkmə müəssisəsində icra olunub. Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova bildirib ki, amnistiya müəssisədə ümumilikdə 49 nəfərə şamil edilib. "Daha əvvəl müəssisədən Amnistiya Aktı tətbiq edilən 73 nəfər azad edilib. Ümumilikdə bu cəzaçəkmə müəssisəsindən 122 nəfər azadlığa buraxılıb. Qeyd edilir ki, 5 noyabr tarixindən icrasına başlanılan Amnistiya Aktı bitənə qədər bu qərarın 17 saylı Cəzaçəkmə müəssisəsindən 500-dən çox məhkuma şamil edilməsi gözlənilir", - A.Sabitova həmçinin qeyd edib ki, Amnistiya Aktı Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində cəza çəkən 65 qadına şamil edilib. Həmin qadınlardan 40 nəfərin cəzası 6 ay azaldılıb, 24 qadın isə azadlığa buraxılıb. Amnistiya Aktı tətbiq edilən 1 qadın isə narkomaniyadan müalicəyə cəlb edilib. Amnistiya Aktına əsasən Penitensiar Xidmətin 2 saylı cəzaçəkmə müəssisəsindən 7 məhkum azad edilib. Onlardan 6 nəfəri azadlığa buraxılır, bir nəfər isə narkomaniya ilə mübarizə çərçivəsində cəlb olunduğu müalicə prosesi bitdikdən sonra azadlığa buraxılacaq. Ümumilikdə 359 nəfər məhkum müalicəyə yönləndirilib, müalicə tədbirləri bitdikdən sonra azadlığa buraxılacaq. Amnistiya Aktının icrası 4 ay müddətində davam etdiriləcək.

**Amnistiya Aktının icrasına ictimai nəzarət olduğunu deyən hüquq müdafiəçisi, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi Bürosunun rəhbəri Səidə Qocamanlı "Şərq"ə açıqlamasında prosesin gedişindən razı qaldıqlarını bildirdi:**

- Bu Amnistiya Aktı çox böyük humanist bir addımdır. Onun Zəfər bayramımız münasibətilə imzalanması da çox önəmlidir. Əvvəllər də amnistiya aktları imzalanıb. Lakin budəfəki Amnistiya Aktı əhatə etdiyi məhbus sayına və kateqoriyalara görə əvvəlkilərdən fərqlənir. Məsələn, bu Amnistiya Aktı qadınları, yetkinlik yaşına çatmayanları, xəstə, ahıl məhbusları daha çox əhatə edir. Əlillərə, müharibə iştirakçılarına, onların ailə üzvləri, ailəsində xəstə uşağı olan, başqa problemli ailələrin hazırda həbsdə olan üzvlərinə, yaşlı insanlara... bir sözlə, bu Amnistiya Aktı özündə böyük bir humanistlik daşıyır. Cəzası azaldılan, cəzasının çəkilməmiş hissəsindən azad edilənlər də var. Həm də elə məhbuslar var ki, evlərinə getməmiş müalicə müəssisəsinə göndərilirlər. Bunun özü humanist bir addımdır. Bilirik ki, narkotik vasitə istifadəçisi olub həbsdə "yatanlar" var. Bu şəxslərin müalicə müəssisəsinə yönləndirilməsi onlara və ailələrinə böyük dəstək, yardımdır. Bu insanlar cəmiyyətə sağlam vətəndaş kimi dönməlidirlər.

S.Qocamanlı Amnistiya Aktının icrasına hüquq müdafiəçiləri və bu istiqamətdə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nəzarət imkanının olduğunu da dedi və hər hansı pozuntu ilə bağlı məlumat daxil olarsa, Ədliyyə Nazirliyi ilə məsələnin araşdırılacağını bildirdi.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Mənim üçün çox şərəflidir"

## "Məşhur Amerika yazıçısı Reyd Breyberi də bu ordeni alır, mən də"



***Şahbaz Xuduoğlu: "Fransa dünya mədəniyyətinə, o cümlədən ədəbiyyatına daha çox töhfələr verib, nəinki siyasətinə. Siyasət isə bizlik deyil"***

**Bu günlərdə tanınmış naşir, "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu Fransanın Ədəbiyyat və İncəsənət üzrə ordeninə layiq görüldü. Bu münasibətlə o, Fransanın ölkəmizdəki səfiri Zakari Qrossla görüşdü. Naşirin feysbuk hesabında paylaşdığı postlardan belə məlum olur ki, görüş maraqlı keçib. Lakin Şahbaz Xuduoğlunun məhz Fransanın ordeni ilə təltif olunması cəmiyyətdə birmənalı qarşılanmadı. Bəziləri bunu siyasiləşdirdilər. Arqument isə hər birimizə məlumdur: Parisin Qarabağ məsələsində sərgilədiyi mövqe.**

*Müzakirələr indiyədək də davam etməkdədir. Bəziləri "Ədəbiyyat hara, siyasət hara?!" deyərək naşirə daha böyük uğurlar arzulayır, bəziləri isə onu tənqid edir. Biz də "Şərq" qəzeti olaraq Şahbaz bəyin özü ilə söhbətləşib, iddialara münasibətini öyrəndik.*

**- Fransanın Ədəbiyyat və İncəsənət üzrə ordeninə layiq görülməyiniz barədə nə deyə bilərsiniz? Necə duyğudur?**

- Təsəvvür edin, həmişəki kimi işə gedirsiniz və çox keçmədən sizə zərf gəlir. Məlum olur ki, mükafata layiq görülmüsünüz. Əlbəttə, çox xoş duyğudur. Araşdırdım və sevimli müəlliflərimin də bu ordenə layiq gördüklərini öyrənəndə daha da sevindim. Məşhur Amerika yazıçısı Reyd Breyberi də bu ordeni alır, Şahbaz Xuduoğlu da...Bu, çox şərəflidir.

**- Nəzərə alsaq ki, Fransanın Azərbaycana münasibəti heç vaxt birmənalı olmayıb, bunu ikiqat uğur hesab etmək olarmı?**

- Fikrimcə, biz, yəni mədəniyyət adamları Fransaya başqa gözlə baxmalıyıq. Rus klassiklərinin, həmçinin dahi ədibimiz Mirzə Fətəli Axundovun gözü ilə... Çünki onların hər biri Fransa ədəbiyyatından bəhrələnib, ilhamlanıblar. Ümumiyyətlə, Fransa dünya mədəniyyətinə, o cümlədən ədəbiyyatına daha çox töhfələr verib, nəinki siyasətinə. Siyasət isə bizlik deyil. Qoy, bununla siyasətçilər məşğul olsunlar. Ancaq dediyim kimi, Fransanın dünya mədəniyyətinə qatqıları danılmazdır.

**- Fransa səfiri indiyədək Şuşada olmayıb. Bundan sonra ordenin sizə Şuşada təqdim olunacağına inanmaq olar?**

- İlk növbədə onu deyim ki, fikrimcə, Fransa ilə münasibətlərimiz situativ xarakter daşıyır. Doğrudur, orada erməni lobbisi çox güclüdür. Fransanın "erməni genosidini" tanıması da bununla bağlıdır. Amma bizim hərbi əməkdaşlığımız da var. Azərbaycanın hərbi sənayesində Fransa ilə əlaqədər müstəsna əhəmiyyət kəsb edir. Yəni ermənilər iki dövlət arasındakı münasibətlərə köklü təsir edə bilmirlər. Bunu sadəcə bacarmırlar. İkinci bir tərəfdən, inanıram ki, israr etsəm, tədbirin Şuşada keçirilməsi mümkün olar. Ancaq səmimi deyim, mən bu mərasimin Yardımlının ucqar kəndlərindən birində baş tutmasını daha çox istəyirəm. Çünki Şuşa onsuz da mədəniyyət paytaxtımızdır. Gələcəkdə inkişaf edəcək, çox böyük tədbirlərə ev sahibliyi edəcək. Lakin elə kəndlərimiz var ki, orada həyat, az qala, dayanıb. Həmin yerlərin sakinləri arasında ədəbiyyatı təbliğ etmək lazımdır. Onlar bilməlidirlər ki, gələcəyə baxmaq, oxumaq, nikbin olmaq lazımdır.

**- Sizdən əvvəl başqa adamlar Fransanın müxtəlif mükafatlarına layiq görüləndə həmin mükafatlardan imtina etmək barədə çağırışlar olurdu. Sizin bu məsələyə münasibətiniz necədir?**

- Belə hallar daha çox siyasi motivli olur. Mükafatın təqdimatı zamanı mənim hansı mövqedə olacağımı indidən söyləmək çətindir. Fəqət dediyim kimi, xüsusilə peşə fəaliyyətimin bəhrəsi olduğuna görə sözügedən orden mənim üçün çox əzizdir. Və ondan imtina etmək barədə düşünmürəm.

**- Hazırda ölkəmizdə Fransa ədəbiyyatına maraq hansı səviyyədədir?**

- Azərbaycanda Fransa ədəbiyyatına maraq həmişə çox olub. Düşünün ki, klassik rus ədəbiyyatı necə oxunursa, fransız ədəbiyyatı da o qədər oxunur. Həmçinin müasir fransız yazıçılarına maraq kifayət qədər böyükdür. Məsələn, Mark Levinin əsərləri ən çox satılan kitablar arasındadır. Biz indiyədək 100-dən çox fransız ədəbiyyatı nümunəsi nəşr etmişik ki, bu da kifayət qədər ciddi rəqəmdir. Səfirlə görüşəndə bu il on yeddi kitabın yayım hüququnun bizə verildiyini öyrəndim. Görünür, ədəbiyyat adamısansa, istər-istəməz fransız müəlliflərə diqqətində olmalıdır.

**- Gələcəkdə "Qanun" nəşriyyatı ilə fransalı müəlliflər, naşirlər arasında əməkdaşlıq barədə planlarınız nələrdir?**

- "Geopolitikaya giriş" əsərinin müəllifi, tanınmış alim Filip Moro Deferj, "Bakıda son günlər" əsərinin müəllifi Olivye Rolen və başqaları müxtəlif vaxtlarda ölkəmizdə olublar. Bizim çox yaxşı münasibətlərimiz var. Həmçinin nəşriyyatlarla da əlaqələrimiz yüksək səviyyədədir. Təkcə klassik yox, müasir ədəbiyyat nümunələri ilə də maraqlanırıq. Ola bilməz ki, hansısa "parlayan" əsər bizim gözümüzdən yayınsın. Planlarımız çoxdur. Ancaq gərək imkanlarımız da arzularımıza mütənasib olsun. Düşünürəm ki, ilk növbədə ölkəmizdə kitaba münasibət dəyişməlidir. Bu, daha çox ədəbiyyatı Azərbaycana cəlb etməkdən ötrü ilkin şərtdir.

Kənan Novruzov

# Çoxlu vəsait xərcləmək lazımdır

## Ermənilərin yalançı göz yaşlarını ifşa etməliyik



**Ermənilər 44 günlük müharibədən sonra dünyaya özlərini yenidən məzlum, təzyiqə məruz qalmış xalq kimi qələmə vermək üçün hər cür yalana əl atırlar. Erməni lobbisi isə bu işdə yenidən fəallığı öz üzərinə götürüb.**

Britaniyalı rejissorun çəkdiyi "Artsax müharibəsi"ndən bəhs edən və "45 gün: Millət uğrunda mübarizə" adlı "sənədli filmi" Oskar mükafatına namizəd seçilib. Bu barədə sənədli filmin britaniyalı rejissoru, Britaniya Kral Dəniz Piyadalarının keçmiş komandiri Emil Hessen twitter mikrobloqunda yazıb. Qeyd edib ki, filmi "Ən yaxşı sənədli film" nominasiyasında Oskar mükafatına namizəddir. Britaniyalı rejissor qeyd edib ki, 2020-ci ildə Qarabağ müharibəsi zamanı "artsaxda" işləyib. Guya film "artsax və Azərbaycan arasında son müharibə zamanı insan hekayələrindən bəhs edir". Bu adamın müharibə dövründə separatçıların yanında olması və orada çəkilişlər aparması onu göstərir ki, o, bu cəfəng filmi xaricdəki erməni lobbisinin sifarişi ilə çəkib. Göründüyü kimi mənfur ermənilər yenə də öz xislətindən əl çəkmir və bütün təsirli vasitələrdən istifadə edərək haqlı Azərbaycanı haqsız duruma salmaq istəyirlər. Şübhəsiz, müasir dövrdə ən təsirli təbliğat vasitəsi film, kino sahəsi hesab olunur. Ekspertlərin fikrincə, Azərbaycan film sektorunda ermənilərin əlinə fürsət verməməli, Qarabağ savaşından bəhs edən bədii və sənədli filmlər hazırlayaraq xarici auditoriyalara təqdim etməlidir.

**Növbəti erməni yalanları ilə bağlı "Şərq"ə danışan Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, "yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə deyib ki, 44 günlük Vətən müharibəsi təkcə yaxın deyil, həm də uzaq tariximizin ən parlaq hadisəsidir. JAM sədri əminliklə bildirib ki, illər keçdikcə bu qələbənin əhəmiyyətini daha dərindən anlayacaq, tariximizin bu səhifəsi ilə qürur duyacağıq:**

***"44 günlük müharibədən dünya səviyyəsində filmlər çəkməliyik"***

"Sözsüz ki, bu cür parlaq qələbə musiqidə, incəsənətdə də öz əksini tapmalı, təbliğ olunmalıdır. Böyük əsər yaratmaq üçün bir il böyük zaman deyil. Mən deməzdim ki, ötən bir ildə müharibə mövzusunda heç nə yazılmadı, çəkilmədi. Xeyli sənədli film çəkildi, şeir, hekayə yazıldı, mahnı bəstələndi. Bəli, "Oskar"a namizəd olan iş ortaya qoymadıq. Amma o da var ki, biz hətta o səviyyədə iş ortaya qoysaydıq, yenə onu "Oskar"a namizəd göstərməyəcəkdilər. Azərbaycanın qələbəsi bəzi qüvvələrin boğazında qalıb, udquna bilmir. Lakin ikili standartlar, qərəzli münasibət bizi hədəflərimizdən yayındırmamalıdır. Biz ermənilərı döyüş meydanında məğlub etdiyimiz kimi sənət meydanında da zəfər çalmalıyıq. Dünya səviyyəsində filmlər çəkməliyik. İncəsənət öz sözünü deməlidir. Bu işləri görmək üçün çoxlu pul xərcləmək lazımdır. Lazım gəlsə, xaricdən rejissorlar, aktyorlar dəvət olunmalıdır. Yəni işlər hesabat xarakterli olmamalıdır. Məmurlar heç olmasa bu dəfə ayrılmış vəsaiti qamarlamamalıdır. İncəsənətin köməyi ilə ermənilərin yalançı göz yaşlarını "qurutmalı", onların qərəzli təbliğatını ifşa etməliyik".

İsmayıl Qocayev

# Uşaq bağçalarında korrupsiya faktları var

## Misir Mərdanovun əleyhinə təbliğat aparıb bağçaları icra hakimiyyətinə verdilər



**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) oktyabrın 4-dən bu günə qədər Bakı şəhəri və regionlarda yerləşən 220 məktəbəqədər təhsil müəssisəsində monitorinq keçirib.**

Agentlikdən verilən məlumata əsasən, yoxlamalar zamanı 205 bağçada 1 236 nöqsan aşkar edilərək qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülüb.

Bildirilib ki, AQTA ölkə üzrə fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində monitorinqi davam etdirir:

"Bu ilin oktyabrın 4-dən başlayan yoxlamalar çərçivəsində məktəbəqədər təhsil müəssisələrində qidalanmanın Nazirlər Kabinetinin 103 saylı qərarında göstərilən qida normalarına uyğun təşkil edilməsi, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsinin qiymətləndirilməsi məsələlərinə baxılıb. Həmçinin yeyinti məhsullarının tədarükü, saxlanması, daşınması, realizə olunması, markalanma və qablaşdırılmasına dair tələblərə əməl olunması yoxlanılır. Bununla yanaşı, mütəxəssislər tərəfindən bağçalarda yeyinti məhsullarının hazırlandığı və saxlandığı sahələrin sanitar-texniki və sanitar-gigiyenik normalara uyğunluğuna yerində baxış keçirilib".

### *Nabatəli Qulamoğlu: "Yaxşı, indi bağçalardakı arzuolunmaz halları kimlər yaradır?!"*

Məlum hadisə bağçaların yenidən Təhsil Nazirliyinin tabeliyinə qaytarılmasını gündəmə gətirib.

**Təhsil üzrə ekspert Nabatəli Qulamoğlu da bildirib ki, Misir Mərdanovu vəzifədən azad etmək üçün uşaq bağçalarını Təhsil Nazirliyinin (TN) səlahiyyətindən çıxardılar:**

"Bakı şəhər İcra Hakimiyyəti (BŞİH) pedaqoji fəaliyyətlə məşğul olmayan bir qurumdur. Siyasi idarədir. Bir çox ekspert, həmçinin vaxtilə M.Mərdanovla arası olmayan adamlar daim təsir edirdilər ki, yeyintiləri keçmiş nazir təşkil edir. Sabiq təhsil naziri M.Mərdanov da açıq-aşkar çıxışında deyib ki, orta məktəblərdə, bağçalarda rüşvəti təşkil edən icra hakimiyyətləridir. Ondan sonra naziri istefaya göndəriblər. Yemək təchizatını o vaxt da Bakı Şəhər İcra Hakimiyyəti təşkil edib. Amma faktiki olaraq nəzarət Təhsil Nazirliyinin əlində idi".

**Ekspert bunu da əlavə edib ki, icra hakimiyyətlərinin rüşvət praktikası var:** "Nə qədər ki, uşaq bağçaları onların əlindədir, bu praktika belə də davam edəcək. Hesab edirəm ki, məktəbəqədər təhsil müəssisələrinin Təhsil Nazirliyinin tabeçiliyinə verilməsi vəziyyəti tam olmasa da, qismən dəyişəcək. Müəyyən qədər qayda-qanun yaranacaq.

Təhsil Nazirliyi digər qurumlara nisbətən rüşvətə az qurşanıb. Uşaq bağçalarının icra hakimiyyətinə verilməsi tələbi ilə insanların adından məqalələr yazılıb. Yazılarda "Təhsil Nazirliyi uşaq bağçalarını yeyib-dağıdır. Ona görə də bunu BŞİH-yə vermək lazımdır" deyə təbliğat aparırdılar. Yaxşı, indi bağçalardakı arzuolunmaz halları kimlər yaradır?!".

**Sücayət Mehti**

# "Atəşgah" kişinin halal pulunu ödəmir

## Sığortasını gözləyən Balasər Babayev müalicəsini Türkiyədə almaq istəyir



**"Baku Steel Kompany" MMC-yə məxsus Poladəritmə zavodunun fəhləsi Babayev Balasər 2014-cü ildə iş başında ağır xəsarət alıb. Ona III qrup əlillik təyin edilib.**

*B.Babayevə sığorta pulu ödənməli olsa da, "Atəşgah" Sığorta məbləği ödəməkdən imtina edir. "Şərq"ə müraciət edən B.Babayev ağır durumda olduğunu, müalicə almaq üçün maddi imkanının yetmədiyini dedi:*

- 14 il Bakı Poladəritmə zavodunun fəhləsi olmuşam. 2014-cü ildə minamyot partlaması nəticəsində mən və fəhlə yoldaşım Akif xəsarət aldıq. Akifin gözləri tutuldu, mənimsə sağ qulağımın pərdəsi yırtıldı. Əlillik təyin edilib mənə. III qrup əliləm. Müavinət də alıram. Mənə sığorta pulu da ödənməlidir. Amma "Atəşgah" Sığorta pulu ödəmir. Halbuki, işlədiyim illər ərzində mən sığorta pulu ödəmişəm. 91 min AZN pul toplanıb adıma. Hamısını demirəm, heç olmasa, yarısını ödəsinlər.

**B.Babayev sığorta pulu ödənilərsə, daha güclü müalicə ala biləcəyini dedi:**

- Yatanda qulağımdan çirkli maye axır. Səsləri yaxşı eşitmək üçün qulağıma mütləq qulaq dibi taxmaq məcburiyyətindəyəm. Onu taxmasam səsləri, sözləri ayırd edə bilmirəm. Həkim mənə deyib ki, Türkiyədə qulaq pərdəsini bərpa edə bilirlər. Türkiyəyə getmək üçün azı 20 min manat pul lazımdır. "Atəşgah" Sığorta illərlə ödədiyim sığorta məbləğinin bir hissəsini qaytarsa, Türkiyəyə müalicə almağa gedə bilərəm. Əziyyətdən də canım qurtarar.

B.Babayev qeyd etdi ki, hazırda zavodda bağban işləyir. Zavod rəhbərliyi onu işdən tamamilə kənarlaşdırmayıb. Lakin aldığı əməkhaqqı müalicə olunmaq üçün yetərsizdir. B.Babayev sığorta şirkətindən illərlə ödədiyi halal pulunu tələb edir.

**Məlahət**

# Xaricdə təhsil almış daha 67 nəfərin diplomu tanınmayıb



**Noyabr ayı üzrə xaricdə təhsil almış şəxslərin diplomlarının tanınması üzrə müraciətlərin statistikası açıqlanıb.**

Təhsildə Keyfiyyat Təminatı Agentliyindən Trend-ə verilən məlumata görə, ötən ay 302 müraciətçinin 235-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 67 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 34, təhsil ölkəsində tələb olunan minimal müddətin ödənilməməsi, həm də tədris dilinin qənaətbəxş olmaması səbəbi ilə 10, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 13, digər səbəblər üzrə 10 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 106, Rusiyadan 79, Ukraynadan 69, Gürcüstandan 11, İtaliyadan 6, digər ölkələrdən isə 31 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 37, iqtisadiyyat üzrə 21, biznesin idarə edilməsi üzrə 12, menecment üzrə 12, tibb üzrə 11 nəfər müraciətçi qeydə alınıb.

*Qeyd edək ki, sənədlərə ortalama baxılma müddəti 19 gün təşkil edib.*

# Azərbaycanda qanunsuz ov edən ərəblər 10 min manat cərimələndi



**Saatlıda qanunsuz ov edən Küveyt vətəndaşları 10 352 manat cərimələniblər.**

Bunu Xidmət rəisi Hikmət Əlizadə bildirib.

Nazirlik rəsmisi qeyd edib ki, Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən növbəti nəzarət tədbirləri zamanı Saatlı rayonunda Azərbaycan Respublikasının ovçuluq haqqında qanunvericiliyinin tələblərini pozan xarici ölkə vətəndaşları saxlanılıb. "Araşdırma zamanı onların Küveyt vətəndaşları Jarrah Alazemi, Ahmad Alazemi, Saad Alazmi, Marzooq Alazmi, Rashed Alazemi, Ayedh Alazimi, Bəhreyn vətəndaşları Abdulla Rebai Hameed Khalaf, Mohamed Abdulwahab Ahmed Alharmasi Alhajrı və İmişli rayon sakini Dilavər İbişov olduğu müəyyən edilib. Faktla bağlı akt, protokol tərtib edilib və təqsirkarlar ümumilikdə 10 352 manat məbləğində cərimə olunub", - H.Əlizadə deyib.

# Xırdalanda xadimə qadın işlədiyi binada özünü öldürdü

**Abşeronda intihar hadisəsi baş verib.**

Hadisə Xırdalan şəhərində qeydə alınıb. Belə ki, 1961-ci il təvəllüdlü Sevinc Sabir qızı Cavadova işlədiyi Qalubiyyə küçəsində yerləşən "Grant" MTK-ya məxsus 21 mərtəbəli binanın 14-cü mərtəbəsindən özünü ataraq intihar edib.

*Rayon prokurorluğu tərəfindən araşdırma aparılır.*

# Kimliyi hələ bəlli deyil

## Xəzər dənizində insan qalıqları aşkarlanıb



**Xəzər dənizində insan qalıqları aşkarlanaraq sudan çıxarılıb. Bunu "APA-Economics"ə SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov deyib.**

"Cəsəd bir müddət əvvəl tapılıb, sudan çıxarılıb, lakin onun kimliyi hələ bəlli deyil. Hazırda araşdırma aparılır", - deyə İ. Əhmədov qeyd edib.

O həmçinin əlavə edib ki, bu, dekabrın 1-i itkin düşən SOCAR əməkdaşı deyil.

Xatırladaq ki, SOCAR-ın elektrik montyoru Namazov Mürsəl Həsənəli oğlu Neft Daşlarında itkin düşüb. M. Namazov dekabrın 1-i gecə növbəsində işləyərkən, sonuncu dəfə saat 05:45 radələrində iş yerində görünüb. Daha sonra onu görən olmayıb.

Meydançanın perimetri boyu, eləcə də onun yaşadığı yataqxanada axtarış aparılıb, axtarış işlərini davam etdirmək üçün sahəyə dərhal gəmilər və dalğıclar çağırılıb. Dəniz üzərindən uçan helikopterlərə də dənizin səthini daim nəzarətdə saxlamaq göstərişi verilib. Dünən hava şəraiti və dənizdə küləyin güclənməsi ilə əlaqədar axtarış işləri məcburən dayandırılsa da, hazırda dənizdə axtarış işlərinin davam etdirilməsinə cəhd olunur.

Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya bildirilib ki, insan qalıqlarının kimliyinin müəyyən edilməsi ilə bağlı qurumun istintaq idarəsində araşdırma aparılır.

# Sumqayıtda avtoxuliqanlıq edən sürücülər saxlanılıb

**Sosial şəbəkələrdə bir sürücünün Sumqayıtda "QAZ 53" markalı yük maşını ilə avtoxuliqanlıq hərəkətləri etməsinə dair görüntülər yayılıb.**






Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Şərq"ə bildiriblər ki, Sumqayıt Şəhər Polis İdarəsinin dövlət yol polisi şöbəsi əməkdaşlarının qısa zamanda həyata keçirdikləri tədbir nəticəsində həmin sürücünün şəxsiyyəti müəyyən edilib. Məlum olub ki, hadisəni şəhər sakini 17 yaşlı Ə.Məmmədov atasına məxsus 31-BD-205 dövlət qeydiyyat nişanlı yük avtomobili ilə törədib. Sumqayıt Şəhər Polis İdarəsinin dövlət yol polisi şöbəsində həmin şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib olunub və toplanan materiallar məhkəməyə göndərilib.

Sürücünün yaşı nəzərə alınaraq barəsində inzibati qaydada həbs cəzası tətbiq edilməyib və o, 1000 manat məbləğində cərimə olunub. Həmçinin sosial şəbəkələrdə Sumqayıt şəhərində toy karvanında avtoxuliqanlıq edən "VAZ 2106" markalı avtomobilin sürücüsünün də görüntüləri yayılıb. Sumqayıt Şəhər Polis İdarəsinin dövlət yol polisi şöbəsinin əməkdaşları tərəfindən həmin sürücü - Məhəmməd Fərzəliyev saxlanılıb. Onun barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib və baxılması üçün məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə Məhəmməd Fərzəliyevin sürücülük hüququ bir il müddətinə məhdudlaşdırılıb və o, 15 gün inzibati qaydada həbs olunub.

# Kəlbəcərdə qızıl axtarışlarına başlanıldı



**İşğaldan azad edilən Kəlbəcər rayonu ərazisində böyük qızıl ehtiyatlarına malik Tutxun təzahüründə artıq geoloji-axtarış işlərinə başlanılıb.**

Bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev UNEC İqtisadi Forumunda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Zərqulu, Qızılitən, Qərbi Qızılitən və Qazıxanlı sahələri üzrə geoloji və geofiziki işlər davam etdirilir.

"Kəlbəcər rayonunun ərazisində yerləşən filiz yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı ilə əlaqədar Türkiyənin "Cengiz Holding" qrupuna daxil olan şirkətlərlə uzunmüddətli müqavilələr bağlanıb. İmzalanan müqavilələrin predmeti də məhz işğaldan azad olunmuş ərazilərimizdə dağ-mədən fəaliyyətinin başlanmasıdır. Layihələrin reallaşdırılması regionun təbii ehtiyatlarından səmərəli istifadə edilməsi və iqtisadi dövriyyəyə cəlb olunması, iqtisadiyyatının canlanması baxımından mühüm önəm kəsb edir. Bu, eyni zamanda həmin ərazilərdə yeni müəssisələrin və iş yerlərinin açılmasına töhfə verəcək", - deyə nazir qeyd edib.

Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in
kompyuter mərkəzində
yığılır, səhifələnir və
"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya
Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti,
"Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı:
2550 Sifariş: 2491



## Vəhşi təbiətdə ilk hadisə...

Ceyranlar da koronavirusa yoluxub

**Kanada Ətraf Mühit Nazirliyinin ”Vəhşi təbiət” qrupunun əməkdaşları Quebec əyalətinin Eastern Townships bölgəsində ağ quyruqlu 3 ceyranda SARS-CoV-2 virusuna yoluxma faktı müəyyən edib.**

”Şərq” ”Haberturk.com”a istinadən bildirir ki, bu barədə Kanadanın CBC media quruluşu xəbər verir. Xəbərə görə, ceyranlarda koronavirusa rastlanması vəhşi təbiətdə ilk hadisədir. Mütəxəssislər virusun yayılma sürətini izləmək üçün əyalətlərlə yanaşı mərkəzi bölgələrdə də müşahidə aparmağı vacib sayır. Kanada Ətraf Mühit Nazirliyinin vəhşi təbiət sağlamlığı üzrə mütəxəssisi Catherine Soos, CBC-yə açıqlamasında vəhşi heyvanlardan ümumilikdə 2 min 700 nümunə alınacağını deyib. Soos ”burada məqsədimiz koronavirusun insandan heyvanlara yoluxub-yoluxmadığını, yoluxma baş verərsə, bunun vəhşi təbiətdə hansı dərəcədə yayıla biləcəyini müəyyən etmək, mümkün təsirləri öyrənməkdir”, söyləyərək vəhşi təbiətdəki virusun insanları nə dərəcədə təsir altına ala biləcəyini araşdıracaqlarını da deyib. ”Virusun yalnız insanlar üzərində təsirli olmasını arzulayırıq. Çünki bu, virusu nəzarət altında saxlamağı asanlaşdırır”.

**Məlahət**

## Bəbirlər azyaşlılara hücum edirlər

Zooloqlar vəhşi heyvanların yaxınlıqdakı meşəlikdən gəldiyini bildiriblər





**Hindistanın Uttar Pradeş ştatında məktəblərdən birinə vəhşi bəbir daxil olub. Sinif otağına girən yırtıcı 10 yaşlı şagirdi yaralayıb. Vəhşi heyvan sınıf otağında qapadılıb və aidiyyəti qurumlara xəbər verilib. Yerli zooloqlar bəbirin yaxınlıqdakı meşəlikdən gəldiyini bildiriblər.**

Oxu.az xəbər verir ki, Madhya-Pradeş ştatında isə bəbir ailəyə hücum edib. Yırtıcı heyvan dişləri ilə səkkiz yaşlı oğlandan yapışaraq meşəyə tərəf qaçıb. Uşağın anası da onun arxasınca qaçıb. Təxminən bir kilometr qaçan heyvan meşədə dayanıb və caynaqları ilə uşağı yerə sıxıb. Hindistanlı qadın özünü bəbirin üstünə atıb və yalın əlləri ilə oğlunu ondan ala bilib.

## Pişik dörd min avroluq çanta reklamına çəkildi



**İtalyan moda evi Valentino, bir stəkan qırmızı şərabla çəkilmiş fotoşəkildən sonra internetdə məşhurlaşan ukraynalı Stepan adlı pişiyi reklama çəkib.**

**Milli.Az xəbər verir ki, hazırda brend pişiyin hesabında ən böyük reklam verənə çevrilib. Yeni fotoda ev heyvanı dörd min avroya brendin çantası ilə pozalar verir.**

***Qeyd edək ki, Valentinodan əvvəl Stepan müğənni Britni Spirs tərəfindən diqqət çəkib və o pişiyin şəklini İnstaqramda yerləşdirib. Müğənni şərhlərdə: ”Əgər bir az sakitləşsəm, məni bu pişiklə hardasa tapa bilərsiniz” deyə qeyd edib.***

## Aslıhan onu hədələyən şəxsi ifşa etdi




**Aktrisa Aslıhan Gürbüz sosial media hesabında onu hədələyən şəxsi ifşa edib.**

**Aktrisa həmin şəxsin ailəsi və yaxın çevrəsi ilə əlaqə saxlamağa çalışdığını bildirib.**

**”Aylardır ən yaxın dostlarımın hesablarını sındırıb anama, qardaşıma, yaxın ətrafıma və mənə çatmağa çalışan biri var. Sənin problemin mənimlədirsə, niyə başqa bir yol sınamırsan? Niyə insanları təqib edirsən? Mən mesajları oxumadan silirəm” - deyə, o sosial media hesabında yazıb.**

***Qeyd edək ki, Aslıhan hazırda ”Masumlar apartmanı” serialında Ceylan obrazına həyat verir.***







# Mis qablar...

## 5 min illik şəfa qaynağıdır, xeyrini saymaqla bitməz



**Məlahət Rzayeva**



**Mis qablar qədim zamanlardan insanların məişətdə ən çox istifadə etdiyi əşyalar olub. Misin tərkibindəki maddələr orqanizm üçün xeyirli olduğundan bu metaldan hazırlanan qablarda xörək yemək, bu qablardan su içmək, eləcə də qabların içində ərzaq saxlamağa üstünlük verilib. Elm sübut edib ki, mis qabdakı su pozitiv elektriklə yüklənmə xüsusiyyətinə malikdir və bu xüsusiyyəti orqanizmin 3 təməlini sabit saxlamağa kömək edir.**

Mis qabda saxlanan su köhnəlmir, iylənmir, keyfiyyətini qoruyur. ”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, müasir həyatda plastmas, şüşə, hər cür süni materiallardan hazırlanan mətbəx əşyaları mis qabları sıradan çıxarsa da, hələ də onlara dəyər verənlər var. Belə şəxslərdən biri Türkiyənin Bursa şəhərində Çancılar Məhəlləsində mis qablar satan Rəqibə Dorakdır. Rəqibə Dorak 5 min il yaşı olan mis qablara son zamanlar marağın artdığını deyir: ”Mis qablarda bakteriyalar əmələ gələ bilməz. Mis qabların müsbət cəhətlərini saymaqla bitməz. Mis qablar orqanizm üçün çox faydalıdır” deyən R.Dorak dükanda satışa çıxarılan mis qabların səthinin nikellə işləndiyini, içinin isə saf misdən olduğunu söyləyir. Satıcı xanım deyir ki, əgər mis sürahinin içindəki su bir gecə saxlandıqdan sonra içilsə, orqanizm mis ehtiyatı almış olur. Bundan başqa mis qabdan içilən su beyin hüceyrələrini hərəkətə gətirir, orqanizmdəki bakteriyaları yox edir, tiroid vəzlərini çalışdırır. Nəticədə sağlam həyat yaşamış olursunuz. Mis qablar zaman-zaman qalaylanmalıdır. Rəqibə Dorak bu işin xüsusi ustaları olduğunu deyir. Mis qabların qiyməti isə ölçülərinə, üzərindəki işləmələrə görə dəyişir. Qiymətlər 60 liradən 180 lirəyədək dəyişir.





# Ödülü "107 Ana" qazandı

## XI Beynəlxalq Cinayət və Cəza Film Festivalı başa çatıb

**Məlahət Rzayeva**

**”Hər kəs üçün ədalət” şüarı altında Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və Şişli Bələdiyyəsinin dəstəyi ilə düzənlənən XI Beynəlxalq Cinayət və Cəza Film Festivalı başa çatıb. ”Şərq” ”Haberturk.com”a istinadən bildirir ki, qaliblərin mükafatlandırılması mərasimi Şişlidəki Nazim Hikmət Mədəniyyət Evində keçirilib.**

Festivalın direktoru professor, doktor Bengi Semerçi kinoseverlərin önünə dop-dolu proqramla çıxdıqlarını deyib, xüsusilə ”Altın tərəzi” tammetrajlı film yarışması”, ”Altın tərəzi” qısametrajlı film yarışması münsiflər heyətinə, festivalın işində iştirak edən hər kəsə, təqdim etdikləri filmlərlə festivala rəng qatan yaradıcı heyətlərə təşəkkür edib. ”Hər il olduğu kimi bu il yaxşıların arasından ən yaxşını seçdiyimizə ümid edirəm”, deyən B.Semerçi ”Altın tərəzi” tammetrajlı film yarışmasının qalibinin ”107 Ana” filmi olduğunu açıqlayıb. Filmin qısa məzmunu belədir; hadisələr Odessadakı qadın islah müəssisələrindən birində cərəyan edir. Lesya adlı qadın 7 il həbs cəzasına məhkum edilib. O, ilk övladını yenicə dünyaya gətirib, amma bundan sonra həyatı islah müəssisəsində keçəcək. O, yalnız qadınların yaşadığı dünyaya qədəm qoyur. Dustaqlar, tibb bacıları və nəzarətçilər, hər yaşda olan qadınlar, ərli qadınlar, dullar, qızlar, bacılar, hamilə qadınlar və uşaqlı qadınlar. Buradakı qadınları bir-birindən ayıran geyimlərinin rəngidir. Yalnız geyim fərqi bu qadınları bir-birindən seçməyə imkan verir. Mükafat filmin rejissoru Peter Kerekesə təqdim edilmək üçün (o, festivalda iştirak etməyib) festivalın başqanı professor, doktor Adəm Sözüerə verilib. Festivalın münsiflər heyəti 2 xüsusi mükafat da təsis edib. Bu mükafatları Yujiro Harumotonun çəkdiyi ”Dəngə” və Ahmet Necdet Çupurun ”Yaramaz uşaqlar” filmləri qazanıb. ”Altın tərəzi” qısametrajlı film yarışmasında isə ”ən yaxşı film” mükafatı ”Mən yaxşıyam, bəs siz?” filminə verilib. Filmin rejissoru Molly Manning Walkerdir. Bu yarışmada xüsusi mükafat isə ”Suçlular” filminə təqdim edilib. Filmin rejissoru Serhat Karaaslandır.

## Məşhur həkimdən şad proqnoz

”Omikron” ştammı ilə pandemiyanın bitəcəyi gözlənilir



**”İnfeksion xəstəliklər və epidemiyanın qanunauyğunluqlarından biri budur ki, virus yayıldıqca, dəyişdikcə, yayılma sürəti artdıqca gücü bir o qədər zəifləyir, qabiliyyəti azalır”.**

Medicina.az xəbər verir ki, məşhur anestezioloq-reanimatoloq Şahin Məmmədov Omikronun pandemiyaya təsiri barədə maraqlı proqnoz verib.

”Əldə edilən məlumatlara görə, Omikron pandemiya dövründə ən sürətli yayılma xüsusiyyətinə malik ştamdır. O, Deltadan da sürətli yayılır. Bunu proqnozlaşdırmaq olar ki, öldürücülük qabiliyyəti aşağı olacaq. Əgər bu variant qrip kimi yüngül keçərsə, elə hesab edin ki, insanları özü vaksinnasiya edəcək. Omikron Deltanı meydandan çıxarsa, pandemiya səngiyəcək və bitmiş sayılacaq. Buna ümid edirik”

## 14 yaşlı qızın dəhşətli sonu

Atası intihar etmək istədi, güllə övladına dəydi



**Türkiyənin Kırıkkale bölgəsində dəhşətli hadisə baş verib.**

Metbuat.az xəbər verir ki, 37 yaşlı ailə başçısı intihara cəhd edib. Məlumata görə, ailə üzvləri evdə olarkən otağın qapısını bağlayan şəxs, odlu silahla özünü öldürmək istəyib. Bu zaman ailə üzvləri onu fikrindən daşındırmaq üçün güc tətbiq edərək, otağa daxil olmaq istəyiblər. Lakin onlar qapını aça bilməyiblər. Bu zaman, türkiyəli atəş açıb. Güllə əvvəlcə onun qoluna ardınca isə qapı arxasında olan 14 yaşlı qıza tuş gəlib. Nəticə qız vəfat edib. Hadisənin səbəbləri araşdırılır.